www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 sentyabr 2018-ci il Çərşənbə axşamı № 195 (7084) Qiyməti 60 qəpik

**Xəbər**

## Şamaxıda kişi arvadını və onun məşuqunu güllələdi

yazısı səh.2-də

**Gündəm**

### "Bu, bir nümunədir..."- prezidentin oğlunun hərbi xidmətə getməsinə reaksiyalar



"Prezidentin nümunəvi addımı hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından da çox böyük əhəmiyyət daşıyır"

yazısı səh.5-də

# PAŞİNYAN MAKRONA ŞİKAYƏTLƏNDİ - BAKI CAVABI HƏRBİ PARADDAN VERDİ

**İrəvanın fiasko olan "dəvəquşu" taktikası:** erməni baş nazir "iki stul"da oturmaq siyasətini qərbyönlü kurs kimi Qərbin özünə baha qiymətə satmaq istəyir - nonsens...




yazısı səh.8-də

### 100 il əvvəl və 100 il sonra Bakıdan dünyaya verilən mesaj

yazısı səh.9-da

### Azərbaycan 5 günlük hərbi təlimlərə başladı - əsas hədəf

yazısı səh.7-də

### Tədris ili ilə birlikdə Bakının tıxaclı günləri də başladı

yazısı səh.3-də

*Psixoloq Təranə Mehdiyeva:*

### "Artıq yüklənmə şagirdlərin sağlamlığına, qavrama qabiliyyətinə mənfi təsir edir"

yazısı səh.14-də

### Telekanallardan hamı şikayətlənir, amma...

yazısı səh.3-də

### Millət vəkili Elxan Süleymanov Şamaxıda və Göyçayda şagirdlərlə görüşdü

yazısı səh.3-də

### "Xruşşovka"ların taleyi sual altında qalıb: söküntünü yubadan səbəblər

yazısı səh.10-da

### Düşməni darmadağın ssenarisi - Azərbaycanın müharibə hüququ gündəmdə

yazısı səh.11-də

### Gözlənilən 2020-ci il böhranında ABŞ-ın rolu və itirəcəkləri...

yazısı səh.10-da

## ABŞ-da başlanmış "Liftremont" korrupsiya qalmaqalı böyüdü - sensasion gəlişmə

Şahid Rəfael Əsgərov ABŞ səfirliyinə, Bakı İcra Hakimiyyətinə və Baş Prokurorluğa ifadə verməyə hazır olduğunu bəyan etdi

yazısı səh.4-də



*Azər Qasımov:*

### "Paşinyan bundan sonra da öz kreslosunda oturmaq istəyirsə..."

yazısı səh.5-də



Kamran Əsədov

### Ekspert test imtahanlarının yeni formatda keçirilməsinin əsas hədəfini açıqladı

yazısı səh.12-də



Telman Zeynalov

### Bakını bürüyən toz-dumanının səbəblərini ölkə ərazisində axtarmalıyıq" - ekspert

yazısı səh.6-da



## DGK sədri Lənkəranda vətəndaşları qəbul edəcək

**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev sentyabrın 21-də saat 11:00-da Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində (Şirəli Axundov küç.) bu bölgədən olan vətəndaşları qəbul edəcək.**

Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən musavat.com-a daxil olan məlumata görə, qəbul zamanı bölgədə yerləşən-Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı rayonlarının sakinlərinin, eləcə də bu bölgədə məskunlaşan məcburi köçkünlərin yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinləniləcək.

Qəbulda iştirak etmək istəyən vətəndaşlar "195" Çağrı Mərkəzi, Dövlət Gömrük Komitəsi (əlaqə telefonu: (012) 404-22-00), Cənub Ərazi Baş Gömrük İdarəsi (əlaqə telefonu: (025) 295-34-69) ilə əlaqə saxlayıb qəbula yazıla bilərlər.

❑ Musavat.com

## Real TV 24 saatlı xəbər yayımına başladı

**Real TV sentyabrın 17-dən 24 saatlıq xəbər yayımına başlayıb. Bu barədə "Yeni Müsavat"a kanalın baş redaktoru Səbinə Heydərova məlumat verib. S. Heydərova bildirib ki, kanalın ümumi fəaliyyəti əvvəlki kimi davam edəcək:**

"İşlədiyimiz formada da davam edəcəyik. Sadəcə olaraq, əvvəl 18 saat xəbər verirdiksə, indi 24 saat xəbər verəcəyik. Kanal fəaliyyətinə xəbər formatında da davam edəcək. Yenə də canlı yayımlar, sosial, siyasət, iqtisadiyyat, idman sahələri üzrə xəbərləri verəcəyik. Yeni verilişlərin başlaması isə nəzərdə tutulmur. "Real intervyu", Mirşahin müəllimin verilişi və adi xəbərlər davam edəcək".

Qeyd edək ki, Real TV-nin təsisçisi Mir Şahin Ağayev payıza doğru kanalda bir çox dəyişikliklər olacağını vəd etmişdi. Real TV 15 mart 2018-ci ildə yayıma başlayıb.

❑ Əli RAİS,
"Yeni Müsavat"

## Ağstafada iki nəfər maskalı şəxs avtomatla evə hücum edib

**Ağstafada iki nəfər maskalı şəxs rayon sakini Əmirxan Mustafayevin evinə hücum edib. "Report"un xəbərinə görə, ev sahibini avtomat silahla hədələyən şəxslər havaya atəş açaraq ondan pul tələb ediblər.**

Ə.Mustafayev maskalı şəxslərlə əlbəyaxa olub, nəticədə onlardan birini tutub və polisə təhvil verib.

Digər şəxs isə hadisə yerindən qaçıb.

Araşdırma zamanı ev sahibinin zərərizləşdirdiyi şəxsin 1962-ci il təvəllüdlü Ceyhun Novruzov olduğu məlum olub.

Qaçan digər maskalı şəxsin axtarışları davam etdirilir.

## İki xalaoğlu Bakıda qadın sürücüyə hücum edib pulunu əlindən aldılar

**Xətai Rayon Polis İdarəsinə müraciət edən rayon sakini şərti adı N.Z olan qadın iki nəfər naməlum şəxsin onu bıçaqla hədələyərək 600 manat və 10000 manat dəyərində qızıl-zinət əşyalarını ələ keçirdiklərini, habelə idarə etdiyi "Changan" markalı avtomobildə ona qarşı əxlaqsız hərəkətlər etdiklərini bildirib.**

DİN-dən verilən məlumata görə, idarə əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Zaqatala rayon sakini İntiqam Yunusov və xalası oğlu Qax rayon sakini Yaqub Məmmədov saxlanılıblar.

Saxlanılan şəxslər ifadələrində hadisə günü qadını izlədiklərini və zərərçəkən qadın idarə etdiyi avtomobildən düşən zaman ona yaxınlaşaraq qeyd edilən cinayəti törətdiklərini bildiriblər.

Faktla bağlı Xətai Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

# Ələt azad iqtisadi zonasının inkişafı ilə bağlı işçi qrupu yaradıldı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Ələt azad iqtisadi zonasının inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncamla Ələt azad iqtisadi zonasının (bundan sonra - Azad Zona) inkişafının təmin edilməsi məqsədilə İşçi qrupu yaradılıb.**

**İşçi qrupun rəhbəri**

Valeh Ələsgərov - Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini

**İşçi qrupun üzvləri**

Samir Nuriyev - Azərbaycan Respublikası Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Kərəm Həsənov - Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin sədri

Əli Abdullayev - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini

Azər Bayramov Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Rauf Hacıyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Süleyman Mikayılov - Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı

Saleh Məmmədov - Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri

Qorxmaz Hüseynov - "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri

Balababa Rzayev - "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Cavid Qurbanov - "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Taleh Ziyadov - "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru

Vüqar Əhmədov - "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini

Əkbər Hacıyev - "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru.

Sərəncama əsasən, işçi qrup müvafiq sahədə nüfuzlu beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə on ay müddətində Azad Zonanın təkmilləşdirilmiş mərhələli inkişaf konsepsiyasını və onun həyata keçirilməsinin ətraflı planını, Azad Zona ərazisinin zonalaşdırılması barədə təklifləri, ətraf mühitin mövcud vəziyyəti barədə məlumatları və digər məsələləri hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələlərin həlli tapşırılıb.

❑ AzərTAc

## AZAL Cenevrəyə reysləri bərpa edir

**Bu il oktyabrın 30-dan etibarən "Azərbaycan Hava Yolları" (AZAL) Bakı-Cenevrə-Bakı marşrutu üzrə uçuşlara başlayır.**

"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən «Trend»ə verilən məlumata görə, AZAL-ın reysləri baqajın və əl yükünün pulsuz daşınması və bort qidalanmanın da daxil olduğu klassik daşıma sxemi üzrə birgə çarter proqramı çərçivəsində yerinə yetiriləcək.

AZAL-ın J2-5009/J2-5010 reysləri həftədə iki dəfə - çərşənbə axşamı və cümə günləri üç xidmət sinfi - VIP Club, Business Class və ekonom sinfində təkmilləşdirilmiş komfortlu oturacaqlara malik "Airbus A319" təyyarələri ilə yerinə yetiriləcək.

Uçuşlar Heydər Əliyev Beynəlxalq Aeroportunun Terminal 1-dən həyata keçiriləcək.

Aviabiletləri AZAL-ın kassalarında, rəsmi agentliklərində və şirkətin www.azal.az saytında bronlaşdırmaq və əldə etmək mümkündür.

## Şamaxıda kişi arvadını və onun məşuqunu güllələdi

**Şamaxı rayonunun Pirbəhli kəndində baş verən hadisənin təfərrüatı məlum olub. Oxu.Az-ın əldə etdiyi məlumata görə, cinayət hadisəsi xəyanətə görə baş verib. Şamaxı rayonu, Pirbəhli kənd sakini İbrahimov Əmrah İbrahim oğlu evə gələn zaman həyat yoldaşını qohumu ilə birlikdə tutub. O, daha sonra ov tüfəngi ilə arvadı, 1982-ci il təvəllüdlü İbrahimova Mixək Xanulduz qızını qarın nahiyəsindən, sevgilisi, Quba rayon Xaltan kənd sakini, 1991-ci il təvəllüdlü Mövlamov Şirinbala Səftər oğlunu isə ağzından vurub.**

Hər iki şəxs ağır vəziyyətdə Şamaxı Rayon Mərkəzi Xəstəxanasına gətirilərkən Şirinbala Mövlamov yolda dünyasını dəyişib.

M.İbrahimova xəstəxananın cərrahiyyə şöbəsinə yerləşdirilib. Onun vəziyyəti ağırdır.

İbrahimov Əmrah İbrahim oğlu polis şöbəsinə gələrək, könüllü təslim olub.

Qeyd edək ki, Ə.İbrahimovun həyat yoldaşını güllələdikdən sonra intihar etdiyi bildirilirdi.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

Telefon: (012) 434 93 01



## "Ermənistanın siyasəti nəticəsində danışıqlar prosesi təhlükə altındadır" - XİN

**"Ermənistanın baş naziri tərəfindən bu cür yalan informasiya verilməsi kontrproduktivdir və bu bir daha göstərir ki, Emənistanın Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində mövqeyi qeyri-ciddidir, ziddiyyətli xarakter daşıyır".**

Bunu Ermənistanın baş naziri Nikol Paşinyanın guya son üç gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın üç əsgərinin öldürülməsi barədə dediklərini "Report"a şərh edərkən Azərbaycan XİN-in mətbuat xidmətindən bildiriblər.

"Bizim Müdafiə Nazirliyimiz də artıq bu dezinformasiyanı təkzib edib. Ermənistan bununla vəziyyətin gərginləşməsinə və danışıqlar prosesinin pozulmasına cəhd göstərir. ATƏT-in Minsk Qrpunun həmsədrlər ölkələri də bunu nəzərə almalıdırlar ki, Ermənistanın bu cür siyasəti nəticəsində danışıqlar prosesi təhlükə altındadır".

## Sumqayıtda iki gəncin batması ilə bağlı araşdırmalara başlandı

**Sumqayıtda dənizdə iki nəfər gəncin batması ilə bağlı araşdırmalara başlanıb.**

«Trend»in məlumatına görə, hadisə sentyabrın 16-da Novxanı çimərliyinin Sumqayıt şəhəri ərazisində, "Caspian Breeze" adlanan yerdə baş verib.

2000-ci il təvəllüdlü Hüseynov Fərid Ələddin oğlu və 1999-cu il təvəllüdlü Baxışzadə Hatif Hatəm oğlu "Caspian Breeze" ərazisində dənizdə çimərkən boğulub.

Hər iki şəxsin meyiti tapılaraq sudan çıxarılıb.

Hadisə ilə bağlı Sumqayıt Şəhər Prokurorluğunda araşdırmalar aparılır və zərurət olduğundan məhkəmə-tibb ekspertizası təyin edilib.

Hadisə ilə bağlı izahatlar alınıb.






# Elxan Süleymanov Şamaxıda və Göyçayda şagirdləri təbrik etdi

## Millət vəkili birinci sinfə qəbul olunan şagirdlərə dərs ləvazimatları təqdim edib

**Sentyabrın 17-də Şamaxının millət vəkili Elxan Süleymanov ənənəvi olaraq bu il də yeni tədris ilini rayon məktəbliləri ilə qarşılayıb. Millət vəkili Şamaxının Məlcək və Ərçiman kəndlərində yeni dərs ilinin başlanması ilə əlaqədar olaraq təşkil olunmuş mərasimlərdə iştirak edib. Elxan Süleymanov hər iki kənddəki mərasimdə çıxış edərək, müəllim və şagirdləri yeni dərs ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb və tövsiyələrini çatdırıb. Millət vəkili Məlcək və Ərçiman kəndlərində birinci sinfə gedən şagirdlərə dərs ləvazimatları hədiyyə edib.**

Xatırladaq ki, millət vəkili Elxan Süleymanovun təşəbbüsü və dəstəyi ilə 2017-ci ildə Məlcək kənd ümumi orta məktəbi üçün ən müasir tələblərə cavab verən yeni bina, Ərçiman kənd ümumi orta məktəbi üçün isə 2015-ci ildə üç sinif otağından ibarət əlavə tədris korpusu inşa edilib.

Sentyabrın 15-də isə millət vəkili doğulduğu Göyçay rayonunun Qaraman kəndində, əsasını babası Hacı Rəhim Əfəndinin qoyduğu və onun adını daşıyan kənd tam orta məktəbində Bilik Günü ilə bağlı tədbirdə iştirak edib. 12 sinif otağı, kitabxana, laboratoriya, hərbi hazırlıq, kompüter otaqları, 2 akt zalı, bufet və daxili qapalı həyətdən ibarət məktəb binası 2017-ci ildə Elxan Süleymanovun dəstəyi ilə inşa olunub. Millət vəkili birinci sinfə qəbul olunan şagirdlərə dərs ləvazimatları təqdim edib. Tədbirdə çıxış edən millət vəkili iştirakçılara Bilik Günü münasibətilə təbriklərini çatdırıb, şagirdləri məktəbin şərəfli ənənələrini davam etdirməyə çağırıb.




❑ **Musavat.com**

# Tədris ili ilə birlikdə Bakının tıxaclı günləri də başladı

## Ekspert: "Universitetləri mərkəzdən köçürmək, məktəblərə şagirdlərin daşınması üçün avtobus almaq lazımdır"

**Yeni tədris ilinin başlaması ilə Bakının tıxac problemi də qayıtdı. Belə ki, sentyabrın 15-də Bakının bir sıra mərkəzi küçələrində 2 saata yaxın davam edən tıxac problemi yaşanıb. Ötən illərdə yaşananlar göstərir ki, bu cür tıxac problem hələ ən azı 1 aydan çox davam edəcək. Maraqlısı da budur ki, hər il tədris ilinin ilk günlərində yaşanan ciddi tıxac problemi ilə bağlı hər hansı bir tədbir görülmür və bu problem ilbəil təkrarlanır.**

**"Yeni Müsavat"a danışan nəqliyyat üzrə ekspert İlqar Hüseynov** bildirib ki, bu günlərdə həddən çox taksi sifarişləri edilib:

"Eyni zamanda insanlar avtomobillərindən də istifadə edərək, uşaqlarını orta məktəbə aparırlar. Bütün bunlar isə Bakı küçələrində uzun tıxacların yaranmasına səbəb olur. Xarici ölkələrdə adətən bu cür halın qarşısını almaq üçün məktəb avtobusları yaradılıb. Belə ki, həmin avtobuslar şagirdləri yığıb, məktəblərə daşıyırlar. Eyni zamanda dərs bitdikdən sonra da şagirdlər bu avtobus vasitəsilə evlərinə yollanırlar. Bakıda isə valideynlər sanki bu cür avtobuslara etibar etmirlər. Eyni zamanda Azərbaycanda fəaliyyət göstərən əksər məktəblərdə bu cür nəqliyyat vasitəsi mövcud deyil. Yalnız xüsusi imtiyazlı və böyük ödənişli liseylərdə bu, tətbiq olunur. İkinci bir məsələ də ondan ibarətdir ki, bu problemin kökü yalnız orta məktəblərlə də məhdudlaşmır. Məlumdur ki, ölkənin əsas aparıcı universitetləri şəhərin mərkəzində yerləşir.



Tədris ili başlayan zaman bu universitetlərdə təhsil alan kifayət qədər tələbə var ki, onlar şəxsi avtomobillərindən istifadə edərək, dərsə gedirlər. Eyni zamanda rayonlardan gələn kifayət qədər tələbələr də var ki, onlar da şəxsi avtomobillərindən istifadə edirlər. Dünya praktikasında universitetlər yataqxanalarla, kampuslarla təmin olunur və şəhər kənarında fəaliyyət göstərirlər. Həmin ölkələrdə tələbələr yalnız tələbə şəhərciyi ərazisində olurlar. Nəticədə nə onların özləri əziyyət çəkib yolda qalırlar, nə də digər yol hərəkəti iştirakçıları tıxacda gözləməli olmurlar. Bizdə tələbə şəhərciyi məfhumu da yoxdur. Yəni bütün məsələlər tıxacın yaranmasına səbəb olacaq haldadır. Şəhərin infrastrukturu imkan vermir ki, birdən-birə daxil olan çoxsaylı avtomobil yükünü qaldırsın".

**Ekspert bildirib ki, indiki halda vətəndaşların özləri də bir qədər diqqətli olmalıdır:**

"Şəxsi nəqliyyat vasitələrindən bir qədər az istifadə etməyə çalışmalıdırlar. Ancaq biz görürük ki, insanlar ictimai nəqliyyatdan istifadə etməyə çox da meylli deyillər. Belə olan halda universitetlərin köçürülməsi, şəhər daxilində olan məktəblərə daşıma ilə məşğul olan avtobusların alınması məsələsi gündəmə gəlməlidir. Bir var ki, bir məktəbin 10 şagirdini şagirdlərin sayı qədər avtomobil gətirib-apara, bir də var ki, həmin şagirdlər bir avtobus vasitəsilə dərsə gedələr. Problemin əsasında dayanan məsələ budur. Hər kəsə də məlumdur ki, tədris ili başlayan kimi Bakı küçələrində tıxaclar yaşanacaq. Ancaq illərdir ki, qeyd etdiyimiz istiqamət üzrə addımlar atılmır. Yenə də məktəblər avtobussuzdur, universitetlər və onların korpusları isə paytaxtın mərkəzi küçələrində yerləşir".

**Ekspert söyləyib ki, indiyə qədər atılan bəzi inzibati addımlar da düzgün praktika deyil:**

"Bir zamanlar şəhərdə tıxacın qarşısını almaq üçün rayondan gələn avtomobillərin paytaxt küçələrinə daxil olmasını əngəlləməyə çalışdılar. Bu, artıq fundamental insan hüquqlarının pozulması demək idi. Necə ola bilər və hansı kriteriyalar tətbiq olunmalıdır ki, rayondan gələn avtomobillər şəhərə daxil olmasın. Bu gün biz rayonlara getsək görərik, orada fəaliyyət göstərən avtomobillərin 100-də 50-sinin dövlət nömrə nişanları Bakı seriyası ilədir. Demək olar ki, əksər maşınlar Bakıdan alınır və seriya nömrələri də yerində qalır. Yol polisi əməkdaşlarının bunun qarşısını tam olaraq alması qeyri-mümkün hal idi və belə də oldu. Bunun tətbiqi effektiv olmadı. Çünki həm də bu hal kütlənin narazılığına gətirib çıxara bilərdi və çıxardı da. İnsanlar bəzən xəstələrini gətirirdilər, bəzən yasa gəlirdilər. Onların şəhərin kənarında düşürdülməsi mümkün ola bilməzdi. Çünki həm də bu şəxslərin ixtiyarına o qədər sayda və sürətli ictimai nəqliyyat da verilmədi ki, həmin nəqliyyat vasitələri insanların istədikləri istiqamətə gəlmələrini təmin edə bilsin. Elə insanlar var ki, həftədə bir dəfə rayona gedib, ərzaq təminatını alır, yüklə qayıdırlar. Onların aqibəti necə olacaqdı? Ona görə də bu üsul nə effekt verdi, nə də Bakıdakı tıxacın qarşısını aldı. Bakıda tıxacın qarşısını almaq və avtomobil sıxlığını azaltmaq üçün yuxarıda söylədiyim hallar reallaşdırılmalıdır. Belə olarsa, sıxlıq nəzərəçarpacaq dərəcədə azalar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Telekanallardan hamı şikayətlənir, amma...

## "MTRŞ və bir çox qurumlar bir araya gəlməli, televiziyanı əvvəlki vəziyyətinə qaytarmalıdır"



**Müğənni Nura Suri insanların mənəviyyatını korlayan verilişlər və aparıcılarla bağlı ittihamlar səsləndirib. Onun sözlərinə həmkarları Günay İbrahimli, Elvin Abdullayev, Səidə Sultan qoşulub. Tanınmışlar televiziyanın acınacaqlı vəziyyətdə olması ilə bağlı MTRŞ-yə müraciət edib. Milli Televiziya və Radio Şurasının Ekspertiza, proqramlaşdırma və analitik şöbəsinin müdiri Təvəkkül Dadaşov isə "Yeni Müsavat" qəzetinə açıqlamasında bildirib ki, radio və televiziyalar qurumun diqqətindədir:**

"Şou nümayəndəsidir, şərh verib, yaxşı edib. Biz dövlət qurumuyuq, ona nə şərh verək? Onsuz da davamlı monitorinqlər aparırıq. Nura Suri və ya hansısa müğənni desə də, deməsə də, radio və televiziyalar diqqətimizdədir. Qanun çərçivəsində bütün xoş olmayan məsələlərin qarşısını alırıq. Məsələlərə şəxsi aspektdən deyil, qanun çərçivəsində yanaşırıq".

TV-lər maarifləndirici deyil, mənəviyyatı korlayan, arzuolunmaz şəxsləri efirlərə daşımaqla məşğuldurlar. İllərdir hər kəs bu problemdən danışır, tənqidlər səslənir. Lakin müsbətə doğru heç bir addımın şahidi olmuruq. Maraqlıdır, niyə?

"Yeni Müsavat" mövzu ilə bağlı media eksperti Qulu Məhərrəmlinin fikirlərini öyrənib. O bildirib ki, televiziyalarla bağlı ciddi addımlar atılmalıdır:

"Vəziyyət o yerə gəlib ki, artıq verilişlərdə başda oturan müğənnilər də dilə gəlib. Əslində haqlıdırlar. Hazırda televiziyanın durumu acınacaqlı haldadır. Bunu isə yalnız bir qrup şəxsin etiraz etməsi düzəltməz. Çünki zaman-zaman bu cür etirazlar olsa da, sonradan unudulub gedib. Ciddi addımlar atmaq lazımdır. Hər mövzu ilə bağlı sənət adamlarını efirə çıxarmaq olmaz. Əxlaq normalarını pozan aparıcılar və məşhurlar efirdən uzaqlaşdırılmalıdır. Əvvəllər ən alt səviyyədə olan və ciddi qəbul edilməyən insanlar indi efirlərdə başda oturub. Bu isə faciəyə aparır. Artıq MTRŞ və bir çox qurumlar bir araya gəlməli, televiziyanı əvvəlki vəziyyətinə qaytarmalıdır. Yoxsa televiziyamızın gələcəyi yoxdur, uçurumdur".

**Aparıcı Kamran Həsənli də müğənnilərin ittihamlarına qoşulub:**

"Bu barədə ürəyim doludur. Televiziyanı peşəkar, işini bilən insanlar idarə etməlidir. Televiziyanın idarəçilərinin, departamentlərin başında olanların bu sahədə uğuru olmalıdır. Televiziyanın daxilində rüşvət yığışdırılmalıdır. Harada rüşvət varsa, o sahə ölümə məhkumdur. Kiminsə adamı, qohumu, sevgilisi aparıcı olanda vəziyyət bu yerə gəlir. Televiziya aparıcısının birinci meyarı intellektdir. Sonra onun yumoru, musiqi duyumu, rəqs qabiliyyəti gəlir. Təbii ki, söhbət şoulardan gedir. Hər aparıcı intellektual olmalıdır. İki kitabı oxumayanlar bu gün efirdə at oynadır. Çünki onların tapşırığı, telekanala ödədikləri maliyyə var.

Mən virtual telekanal rəhbəri olsam, 2-3 aya hər şeyi düzəldərəm. Türkiyə, Rusiya telekanalları səviyyəsində telekanal yaradaram. Televiziyalarımız ölkəmizin inkişaf səviyyəsindən qat-qat zəifdir".

❑ **KÖNÜL,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 195 (7084) 18 sentyabr 2018

**ABŞ-ın "United Technologies Corporation" şirkətinin bu ölkənin Qiymətli Kağızlar Komitəsinə (SEC) 13 milyon 400 min dollar cərimə ödəyəcək xəbəri bir göz qırpımında Azərbaycan mətbuatının gündəmi oldu. Buna səbəb şirkətin törəmə müəssisəsi olan "Otis Elevator Co." lift istehsalı şirkəti tərəfindən Bakı Lift-Təmir İstehsalat Birliyinə (SEC-in sənədlərində bu müəssisənin adı "Liftremont" kimi gedir) rüşvət verilməsidir. Bu haqda mətbuatda yayılan xəbərlərdən sonra sentyabrın 17-də Azərbaycan vətəndaşı Rəfael Əsgərov bir neçə dövlət qurumu ilə yanaşı ABŞ-ın ölkəmizdəki səfirliyinə də müraciət ünvanlayıb. O, müraciətində olduqca ilginc məqamlara toxunub, bu qalmaqallı korrupsiya cinayətinin hərtərəfli araşdırılması üçün ifadə verməyə hazır olduğunu bəyan edib.**

# ABŞ-da başlanmış "Liftremont" korrupsiya qalmaqalı böyüdü - sensasion gəlişmə

## Şahid Rəfael Əsgərov ABŞ səfirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə və Baş Prokurorluğa ifadə verməyə hazır olduğunu bəyan etdi


Qüdrət Şükürov

SEC-in saytında yer alan məlumatda bildirilir ki, "Otis Elevator Co." Bakının dövlət balansında olan binaları liftlə təchiz etmək üçün Bakı Lift-Təmir İstehsalat Birliyinin məmurlarını rüşvətlə ələ alıb. Bununla da ABŞ-ın Xarici Korrupsiyaya qarşı Mübarizə Aktını pozub. "United Technologies Corporation" Azərbaycan məmurlarına rüşvət verdiyini nə təsdiq, nə təkzib edir.

SEC şirkətə qarşı təhqiqatı daxili administrativ sərəncam çərçivəsində aparıb və işin məhkəməyə göndərilməməsi üçün "United Technologies Corporation"a cərimə ödəməyi təklif edib. Şirkət təkliflə razılaşıb və 13 milyon 900 min dolları dövlətə ödəyib.

SEC bildirir ki, 2012-ci ildə Bakı Şəhər İcra Hakimiyyəti şəhərin ictimai yaşayış binalarının yeni liftlərlə təchiz edilməsinə dair tender elan edib. "Otis Elevator Co." bu tenderi udmaq üçün Bakı Lift Təmir İstehsalat Birliyinin rəhbərliyinə rüşvət verməyə razılaşıb. Rüşvətin verilməsi və liftlərin alınması üçün kağız üzərində subpodratçı şirkətlər və vasitəçilər üzərindən qurulmuş sxemdən istifadə olunub.

İlk sxem 2012-ci ilin martında "Otis Rusiya" şirkəti tərəfindən liftlərin Bakı Lift Təmir İstehsalat Birliyinə birbaşa satışı ilə bağlı olub. Bu sövdələşmənin həcmi 1.8 milyon dollar olub və məbləğin az qala yarısını "şapka" kimi İstehsalat Birliyinin rəhbərliyinə ötürüblər. Pulları "Liftremont"un vəzifəli şəxslərinə ötürmək üçün iki subpodratçı şirkətin bank hesablarından istifadə olunub. Bildirilir ki, həmin subpodratçıların hesablarına 790 min dollar köçürülüb. Bu da müqavilənin ümumi dəyərinin 44 faizi idi. Subpodratçılara pulların köçürülməsi müvafiq sənədləşdirmə olmadan, müqavilə bağlanmadan həyata keçirilib.

2013-cü ilin fevralından 2014-cü ilin dekabrına qədər "Otis" Bakı Lift Təmir İstehsalat Birliyindən əlavə müqavilə almağa çalışıb. İstehsalat Birliyinin "yüksək vəzifəli şəxsinin" göstərişi ilə "Otis Rusiya" şirkəti dörd ayrı vasitəçi şirkət üzərindən "Liftremont"la 9 ayrı müqavilə bağlayıb. Hər dəfə "Otis Rusiya" liftləri vasitəçilərə eyni qiymətə satıb, korrupsiya sövdələşməsinə əsasən həmin vasitəçilər liftləri xeyli şişirdilmiş qiymətə Bakı Lift İstehsalat birliyinə satıblar. Arada olan fərq birliyin rəhbərliyinin hesablarına keçirilib.

SEC "Otis Rusiya" şirkətinin menecerləri ilə Bakı Lift Təmir İstehsalat Birliyinin rəhbərliyi arasında elektron yazışmaları da əldə edib. Bu yazışmalarda tərəflər liftlərə görə alınacaq "şapka"nı müzakirə edirlər. Rüşvət pulları ya üçüncü ölkəyə, ya birbaşa Azərbaycana transfer edilib. Məsələn, elektron məktublardan birində "Liftremont"un vəzifəli şəxsləri və "Otis Rusiya" şirkətinin menecerləri Türkiyədəki hesaba 214 min 126 avro və 104 min 465 dolların köçürülməsini müzakirə edirlər.

Habelə "Otis Rusiya" Bakı Lift Təmir İstehsalat Birliyinin rəhbərlərinə qanunsuz ödəmələr etmək üçün başqa sxemlərdən də istifadə edib. Sxemlərdən birinə görə, Bakı Lift Təmir İstehsalat Birliyi "Otis Rusiya" şirkətinin Azərbaycan distribütoru seçilib. Baxmayaraq ki, İstehsalat Birliyi dövlət orqanı idi. İstisna deyil ki, əslində bu distribütorluq razılaşması "Liftremont"un rəhbərliyinə rüşvət ötürmək üçün idi. Çünki razılaşma elə kağız üzərində də qalıb.

SEC müəyyən edib ki, "Otis Rusiya" şirkəti və "Liftremont" arasında qurulmuş korrupsiya sxemləri sayəsində vasitəçilər ən azı 11.8 milyon dollar alıblar. Və bu məbləğin əsas hissəsi "Liftremont"un rəhbərliyinə çatıb.

Bildirilir ki, "United Technologies Corporation" şirkəti bütün bu korrupsiya sxemlərindən xəbərsiz olduğunu bildirib. Şirkət SEC-ə izahatında göstərib ki, ilk dəfə bu haqda 2017-ci ilin aprelində Azərbaycan mətbuatında "Otis Rusiya" şirkətinin baş əməliyyat direktorunun "Liftremont"un rəhbəri Qüdrət Şükürova 1.7 milyon dollar rüşvət verdiyi haqda xəbərlərdən sonra duyuq düşüb. Bu məlumat Şükürovun keçmiş qohumlarının bəyanatlarına əsaslanırdı. Bildirilirdi ki, Şükürov həmin pullara İstanbulun elit yaşayış komplekslərindən birində 4 mənzil alıb.

2012-ci ilin martından 2014-cü ilin avqustuna qədər "Otis Rusiya" "Liftremont"a liftlər satmaq üçün cəmi 10 müqavilə bağlayıb. Bu müqavilələrin ümumi məbləği 14.6 milyon dollar olub.

Göründüyü kimi, ABŞ-ın Qiymətli Kağızlar Komitəsi "Otis" şirkəti ilə Bakı Lift Təmir İstehsalat Birliyi arasında milyonlarla dollarlıq korrupsiya sövdələşməsinin izinə Azərbaycan mətbuatında gedən xəbərlərdən sonra düşüb. Hansı ki, şəhərin baş "liftçisi" Qüdrət Şükürovun bu korrupsiya əməli qızının ikinci dəfə dəbdəbəli toyla ərə getməsi xəbərlərindən sonra üzə çıxdı. Mini-oliqarx Şükürovun keçmiş qudası Rafael Əsgərov onun korrupsiya əməlləri barədə faktları yerli KİV-lərə, xüsusən "Yeni Müsavat"a ötürdü, habelə müxtəlif dövlət orqanlarına yazdı.

O, müsavat.com-a bildirirdi ki, 2013-cü ilin aprelində Q.Şükürovun təklifi ilə birlikdə Moskvaya gediblər. Həmin səfərdə Q.Şükürov içki məclisindən sonra Moskvada yaşayan bir erməni ilə əlaqə saxlayıb. Həmin erməni Vardan Avakyan olub. "OTİS" lift zavodunun rəhbəriyində təmsil olunan V.Avakyana Q.Şükürov özünü qeyri-azərbaycanlı kimi təqdim etməklə onunla görüşmək istədiyini deyib. Növbəti gün isə onunla görüşə gedib.

R.Əsgərov yazıb ki, ermənilərin işğal etdiyi Qubadlıdandır və həmin vaxt qudası ilə ermənin görüşünə getməkdən imtina edib. Həmin görüşdən sonrakı günlərdə qudalar Moskvadan İstanbula uçublar. Q.Şükürov qudasına deyib ki, "OTİS" zavodu ilə müqavilə bağlayıb. İstanbulda olarkən qudalar ən bahalı yaşayış massivlərindən birinə - "Qoru-Floriya"ya gediblər. Orada Q.Şükürov hər birinin qiyməti 850 min dollar olan iki 4 otaqlı tam təmirli, içində bahalı mebelləri olan mənzil alıb. Mənzillərə görə ödənilən 1 milyon 700 min pulu "OTİS"in işçisi Andrey adlı şəxs "Qoru-Floriya"ya köçürüb. Sitat: **"Bu, mənim gözlərimin qarşısında baş verdi. Mən ümumi söhbətlərdən başa düşdüm ki, həmin pul "otkat"dır".**

Rəfael Əsgərov Qüdrət Şükürovun "otkat"ları haradan, hansı yollarla alması haqda da bilgilərə malikdir. ABŞ-da bu qalmaqallı korrupsiya işi ilə bağlı araşdırmalardan xəbər tutunca böyük korrupsiya cinayəti ilə bağlı şahid qismində ifadə vermək üçün olduqca ciddi addımlar atıb.

Rəfael Əsgərov ABŞ-ın ölkəmizdəki səfirliyinə, Bakı şəhər İcra Hakimiyyətinə və baş prokurora sensasion məktub ünvanlayıb. O, şahid qismində ifadə vermək üçün Azərbaycan hüquq-mühafizə orqanları ilə yanaşı ABŞ-ın müvafiq dövlət qurumlarına da bildiyi və şahidi olduğu böyük korrupsiya qalmaqalı ilə bağlı məluma verməyə hazır olduğunu bəyan edib.

"Yeni Müsavat"ın əməkdaşı məsələ ilə bağlı Rəfael Əsgərovla əlaqə saxlayıb. R. Əsgərov belə bir müraciət etdiyini təsdiqləyib. Deyib ki, sentyabrın 17-də Azərbaycanın Baş Prokurorluğunda, Bakı Şəhər İcra Hakimiyyətində və ABŞ-ın ölkəmizdəki səfirliyində olub, hər 3 ünvana müvafiq rəsmi müraciətini təqdim edib. Rəfael Əsgərov həmin müraciətində vurğulayır ki, "United Technologies Corporation" şirkəti baş verən korrupsiya cinayətinə görə ABŞ-ın Qiymətli Kağızlar Komitəsinə (SEC) 13.4 milyon dollar cərimə ödəməyə razılaşıb: **"Azərbaycan KİV-ləri (musavat.com, virtualaz.org) yazırlar ki, SEC-in rəsmi saytında buna səbəb kimi şirkətin törəmə müəssisəsi olan "Otis Elevator Co." lift istehsalı şirkəti tərəfindən Bakı Lift-Təmir İstehsalat Birliyinə (SEC-in sənədlərində bu müəssisənin adı "Liftremont" kimi gedir) rüşvət verilməsidir. SEC bildirir ki, "Otis Elevator Co." Bakının dövlət balansında olan binalarını liftlə təchiz etmək üçün Bakı Lift-Təmir İstehsalat Birliyinin məmurlarını rüşvətlə ələ alıb. Bununla da ABŞ-ın Xarici Korrupsiyaya qarşı Mübarizə Aktını pozub. Mən də müraciət etdim ki, həmin fakt üzrə ifadələrim alınsın. Əvvəllər Bakı Lift-Təmir İstehsalat Birliyində baş verən korrupsiya halları ilə bağlı bildiyim, şahidi olduğum məsələlərlə bağlı müxtəlif dövlət qurumlarına müraciətlər etmişəm. Azərbaycan mətbuatında ("Yeni Müsavat" qəzetində 19.04.2018 tarixdə "Eks qudasından baş liftçi Qüdrət Şükürova ağır ittihamlar" http://musavat.com/news/eks-qudasin-dan-bas-liftci-qud-ret-sukurova-agir-ittihamlar_520318.html) da bu haqda çıxışlarım olub. Bakı Lift-Təmir İstehsalat Birliyinin baş direktoru Qüdrət Şükürovun qeyd olunan korrupsiya sövdələşmələrinin bəzilərinə şahidlik etmişəm. Həmin hallarla bağlı mətbuatdakı çıxışlarımı da məktubuma əlavə etmişəm. Cənab Zakir Qaralovdan dönə-dönə xahiş edirəm ki, Qüdrət Şükürovun dövlət büdcəsindən ayrılan vəsaitlərin təyinatından yayındırması ilə bağlı əməllərinin nəzarəti altında araşdırılmasını təmin etsin.**

**Səfirlik səlahiyyətlilərindən də xahiş edirəm ki, ABŞ-ın Xarici Korrupsiyaya qarşı Mübarizə Aktının pozulması ilə bağlı müəyyən edilmiş faktların araşdırılması üzrə şahid qismində dindirilməyimi təmin etsinlər."**

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# “Bu, bir nümunədir...” - prezidentin oğlunun hərbi xidmətə getməsinə reaksiyalar

## Bir çoxları hesab edir ki, prezidentin nümunəvi addımı hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından da çox böyük əhəmiyyət daşıyır

**Azərbaycan prezidenti İlham Əliyevin oğlu Heydər Əliyevin hərbi xidmətə yollanması və ötən həftə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində keçirilən mərasimdə yoldaşları ilə birgə and içməsi gündəmin əsas müzakirə mövzularındandır.**



Xəbər verildiyi kimi, prezident birinci xanım Mehriban Əliyeva və digər ailə üzvləri ilə birlikdə ADA Universitetinin bakalavriat pilləsini bitirən 1997-ci il təvəllüdlü Heydər Əliyevin andiçmə mərasiminə qatılıb və şəxsi heyəti təbrik edib.

Qeyd edək ki, prezidentin öz oğlunu hərbi xidmətə göndərməsi və şəxsən andiçmə mərasiminə qatılması ölkəmizdə bir ilkdir. Bu baxımdan hadisəni təqdir edib onu nümunə kimi qiymətləndirənlər üstünlük təşkil edir. Bir çoxları hesab edir ki, prezidentin nümunəvi addımı hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından çox böyük əhəmiyyət daşıyır.

Şübhəsiz ki, ölkənin birinci şəxsinin övladının hərbi mundir geyinməsindən, Vətənə xidmət andı içməsindən sonra ölkədə hansısa yollarla hərbi xidmətdən boyun qaçırmağa cəhd edənlər, yaxud övladlarını əsgərlikdən yayındırmağa çalışanlar da fikirlərini müsbətə doğru dəyişəcəklər. Təbii ki, belə şəxslər arasında həm iqtidar təmsilçiləri, həm də müxalifətçilər var.

Elə ekspertlər də bu fikirdədir.

**Deputat Fazil Mustafa “Yeni Müsavat”a açıqlamasında prezidentin oğlunun hərbi xidmətə yollanmasını hərbi xidmətdən yayınma hallarının azalması baxımından müsbət hadisə kimi xarakterizə etdi:** “Bu, bir ənənəyə çevrilməlidir. Əslində ölkədə bu istiqamətdə addımlar onu göstərir ki, son vaxtlar, ümumiyyətlə, hərbi xidmət məsələsinə çox ciddi yanaşma var. Bu da müsbət bir tendensiyadır, mən bunu yüksək qiymətləndirirəm”. **F.Mustafa qeyd etdi ki, prezidentin özünün andiçmə mərasimində iştirak etməsi yaxşı bir ənənədir:** “Çünki müharibə aparan dövlətik. Ən azı prezidentin nümunəsində hərbiyə, vətənpərvərliyə necə qiymət verildiyinin göstərilməsi çox yaxşı bir tendensiyadır, bunu davam etdirmək lazımdır”. **Deputat bu hadisənin əleyhinə səslənən çıxışları “axmaqlıq” kimi qiymətləndirdi:** “Prezident nə etməliydi ki? Andiçmə mərasiminə qatılmamalıydı? Mən iki dəfə hərbi xidmətdə olmuşam, sabah oğlum əsgərliyə gedəndə özüm də məmnuniyyətlə andiçmə mərasimində iştirak edəcəyəm. Bəs neyləyim, iştirak etməyim? Arqumentsiz, axmaq çıxışlar gülüş doğurur. Yaxşı tendensiyaya yaxşı demək lazımdır”.

**Sabiq baş nazir Pənah Hüseynsə qəzetimizə açıqlamasında məsələyə qısa münasibət bildirdi:** “Hər bir Azərbaycan vətəndaşının hərbi xidmət keçməsi onun konstitusion borcudur”.

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli modern.az-a deyib ki, ölkə başçısının hər bir addımı hər kəs üçün nümunə olmalıdır:** “Cənab prezidentin oğlu Heydər Əliyevin həqiqi hərbi xidmətə yollanması hər birimiz üçün iftixar hissidir. Yaxşı olardı ki, bu, hər bir məmurumuz üçün örnək olsun”.



**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə deyib ki, cənab prezidentin nəinki dünənki addımı, onun bütün addımları məmurlar üçün örnək olmalıdır:** “Amma çox təəssüflər olsun ki, zaman-zaman bəzi məmurlar cənab prezidentin təqdim etdiyi, ortaya qoyduğu davranış və dözümlülük qaydalarını pozurlar. Bəzən biz harınlamış, yolunu azmış, haqdan uzaq düşmüş, özünün var-dövləti ilə öyünməyə çalışan, dövlətinə, xalqına qarşı əks mövqe tutan ayrı-ayrı məmurları görmüşük. Mən həmişə demişəm ki, yerlərdə icra başçıları, nazirlər, millət vəkilləri, məmurların hər biri cənab prezidentdən həmişə örnək götürməlidir. Məmurlar sadəliyi ilə vətəndaşlara doğru yol göstərməlidir, onların həmişə yanında olmalı və rəğbətini qazanmalıdır. Dünənki hadisə də məmurlara örnək olmalıdır”. Deputat bildirib ki, çoxsaylı məmurlar var ki, onlar övladlarını hərbi xidmətdən yayındırmaq üçün Avropada, Amerikada təhsil almaq adı altında ölkədən çıxarıblar.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aqil Abbas qeyd edib ki, ölkə başçısının oğlunun hərbi xidmətə yollanması təbii ki, bir nümunədir:** “Həm də getməlidir. Çünki onun da gələcəyi var. Hərbi xidmətdə olmayan şəxs gələcəkdə dövlət işində işləyə bilməz. Prezident bir nümunə göstərərək oğlunu hərbi xidmətə yollayıb”. **Deputat bildirib ki, onun tanıdığı məmurların övladlarının hamısı hərbi xidmətə gedib və ya hazırda əsgərlikdədirlər:** “Əgər çağırış yaşlı vətəndaşın səhhətində problem yoxdursa, mütləq hərbi xidmətdə olmalıdır. Türkiyədə belə bir şey var ki, hərbi xidmətə getməyənlərə qız vermirlər. Bizdə də hər bir sağlam vətəndaş hərbi xidmətə getməlidir. Bu, hər bir şəxsin vətən qarşısında vətəndaşlıq borcudur”.

**“Azərbaycan Prezidenti İlham Əliyevin oğlu Heydər Əliyevin hərbi xidmət keçməsi cəmiyyət üçün örnəkdir. O, bir gənc olaraq vətən qarşısında borcunu sədaqətlə yerinə yetirir. Bu, gənclər üçün örnək, nümunədir”.**

**Bunu “Report”a açıqlamasında hakim Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat qeyd edib ki, bu, həm də Əliyevlər ailəsinin Azərbaycan dövlətinə bağlılığını göstərir:** “Heydər Əliyev Azərbaycan gəncinin nümunəvi obrazıdır. O, tələbəlik illərində də nümunəvi olub. Azərbaycan gənci Vətənə, torpağa bağlıdır. Cəmiyyətimiz Heydər Əliyevin hərbi xidmətə getməsini müsbət qarşıladı. Bu hadisə cəmiyyətdə müsbət aura yaradıb”.

**Razi Nurullayevin sədrlik etdiyi AXCP Ali Məclisinin sədri, Rəyasət Heyəti üzvü Rafiq Daşdəmirli isə facebook-dakı şəxsi səhifəsində bunları yazıb:** “Heydər Əliyevin hərbi forma geyinməsini, hərbi andiçməsini alqışlayıram və ona Vətənə ləyaqətlə qulluq etməsini arzulayıram. Yaxşı olardı ki, məmur balalarının hamısı hərbi qulluğa gedib, hərbi vəzifələrini yerinə yetirəydilər”.

**Ehtiyatda olan zabit, polkovnik Şair Ramaldanov “Yeni Müsavat”a dedi ki, prezidentin oğlunun hərbi xidmətə yollanmasını təqdir edir:** “Heydər Əliyev prezidentin oğludur, amma Azərbaycan vətəndaşıdır. Prezident oğlu xidmət yaşı çatmış bütün gənclər kimi çağırış qaydalarına uyğun olaraq əsgərliyə gedib. Burada başqa bir yanaşma yoxdur”.

“Diplomatik, siyasi və hərbi şərtlər Azərbaycan liderinin istədiyi səmt üzrə inkişaf edir və məhz belə bir şəraitdə Ali Baş Komandanın övladı, müasir dövlətimizin qurucu atasının adını daşıyan oğul Heydər Əliyev hərbi mündirdə 10 milyonluq xalqın önündə şərəf və ləyaqətlə addımlayır, Silahlı Qüvvələrin cərgəsində Vətənə sədaqət andı içir. Doğrudur, prezident övladının müqəddəs əsgər libası geyən sadə azərbaycanlı oğulları ilə çiyin-çiyinə dayanması milli ruhu yüksəldən bir hadisədir və bütün həyatını güclü dövlət qurmağa həsr edən bir liderin təkcə qanunlara ehtiramı yox, həm də xalqın sabahı ilə öz balalarının taleyini necə bir sırada gördüyünün əyani sübutudur. Nümunəvidir, qürur doğurucudur və dövlət-vətəndaş bağlarını möhkəmləndirən rəhbərin təkcə siyasi deyil, insani xarakterini də təyin etmək üçün görk hadisəsidir”. Bu fikirlər isə deputat Zahid Oruca məxsusdur.

# Paşinyana Bakıdan tutarlı cavab və xəbərdarlıq

## Azər Qasımov: “Paşinyan bundan sonra da öz kreslosunda oturmaq istəyirsə...”



**“Birinci dəfə deyil ki, Ermənistanın baş naziri Azərbaycanın daxili məsələləri ilə bağlı yersiz və cəfəng açıqlamalar verir”. Bu barədə “Trend”ə Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi Azər Qasımov deyib. A.Qasımov qeyd edib: “Birinci dəfə deyildir ki, Ermənistanın baş naziri Azərbaycanın daxili məsələləri ilə bağlı yersiz və cəfəng açıqlamalar verir. Əvvəla, bu onu göstərir ki, Paşinyan siyasətdə təsadüfi bir fiqurdur, beynəlxalq münasibətlərdən xəbərsizdir. Paşinyan Azərbaycanın daxili işlərinə müntəzəm olaraq öz burnunu soxur. Bildirmək istəyirik ki, əgər Azərbaycan Ermənistanın daxili işlərinə müdaxilə etsə, Paşinyan hakimiyyətinin ömrü uzun olmayacaq. Sərkisyanın diktatura rejiminin çökməsi buna sübutdur. Sadəcə olaraq, indiki şəraitdə Paşinyan rejiminin çökməsi Azərbaycana sərf eləmir. Nə qədər çox Ermənistanda Paşinyanın diktaturası davam edərsə, bir o qədər də bu ölkənin problemləri çox olacaq. Paşinyan xarici səfərlərində yaltaqlanmaqla, özünü alçaltmaqla, qul kimi aparmaqla istədiyinə nail ola bilməz. Paşinyanın yeni diktatura rejimi Ermənistanı uçuruma aparır. Məhz buna görə də Azərbaycan tərəfi Paşinyan hakimiyyətinin çökməsi üçün hələlik hər hansı bir addım atmır”.**

Prezidentin köməkçisi ardınca bildirib: “Paşinyanın növbəti sarsaq açıqlaması prezident İlham Əliyevin oğlu Heydər Əliyevin silahlı qüvvələrdə xidməti ilə bağlıdır. Bildirmək istəyirik ki, Heydər Əliyev öz fiziki keyfiyyətlərinə və hazırlığına görə Azərbaycanın ən döyüş qabiliyyətli hərbi hissələrinin birinə hərbi xidmətə çağırılıb və sentyabrın 16-da keçirilən andiçmə mərasimi bu hərbi hissənin Azərbaycanın Silahlı Qüvvələrinin aparıcı hissələrinin biri olduğunu nümayiş etdirdi. Paşinyanın oğluna gəldikdə isə, bizdə olan məlumata görə, o, təmas xəttindən təxminən 50 km məsafədə Azərbaycanın işğal edilmiş Cəbrayıl rayonunda Ermənistanın hərbi hissələrinin birinə yazılıb və burada əsasən məişət məsələləri ilə məşğuldur. Bu hissəyə yazılmasına baxmayaraq vaxtının çoxunu Xankəndində keçirir. Ümumiyyətlə, Paşinyanın oğlunun hərbi xidməti ilə bağlı aparılan ucuz təbliğat növbəti populist və aşağı keyfiyyətli şoudan başqa bir şey deyildir”.

**A.Qasımov ardınca bildirib ki, Paşinyanın necə şoumen olması bizə yaxşı bəllidir:** “Azərbaycan prezidentinin mətbuat xidmətinin əməkdaşları Brüsseldə iyulda keçirilmiş NATO zirvə toplantısının kuluarlarında Paşinyanın cılız və yaltaq hərəkətlərini öz gözləri ilə görmüşlər. NATO-ya üzv dövlətlərin rəhbərlərinə yaxınlaşıb onlarla şəkil çəkdirməyi Paşinyan Ermənistanda bu liderlərlə keçirilmiş görüşlər kimi təqdim etmişdir. Belə gülməli hərəkətlər Paşinyanın çox pis şoumen olduğunu göstərir. Sonda bir daha bildirmək istəyirik ki, əgər Paşinyan bundan sonra da öz kreslosunda oturmaq istəyirsə, ona Azərbaycanın daxili işlərinə burnunu soxmamasını məsləhət görürük”.

Səhifəni hazırladı: E.PAŞASOY, “Yeni Müsavat”




## Azərbaycan Prokurorluğu Beynəlxalq Prokurorlar Assosiasiyasının xüsusi mükafatı ilə təltif edilib

**Sentyabrın 7-dən 14-dək Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində BPA-nın İcraiyyə Komitəsinin 46-cı iclası, 23-cü İllik Konfransı və Ümumi Yığıncağı keçirilib. "Prokurorların müstəqilliyi - cəmiyyətdə ədalət mühakiməsinin təməlidir" mövzusunda keçirilmiş konfransda 90 ölkədən 450-dən artıq şəxsin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq mühafizə orqanlarının rəhbər şəxsləri, beynəlxalq təşkilatların yüksək vəzifəli nümayəndələri iştirak edib.**

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a daxil olan məlumata görə, tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Xəbərdə deyilir: "Azərbaycanın nümayəndə heyəti tədbirdə fəal və səmərəli iştirak edib. Belə ki, Anti-Korrupsiya Prokurorları Şəbəkəsinin (NACP) xüsusi maraq qrupunun sessiyasına rəhbərlik edən K.Əliyev çıxışında Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə fəaliyyətinin dövlət başçısı İlham Əliyevin qətiyyətli siyasi iradəsinə söykəndiyini qeyd etmiş, həyata keçirilmiş mütərəqqi hüquqi və institusional tədbirlər barədə ətraflı məlumat verərək ölkəmizin anti-korrupsiya strategiyasında beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirildiyini vurğulayıb. Bildirilib ki, Azərbaycan Assosiasiyanın fəaliyyətinə əhəmiyyətli töhfələr verməklə xüsusi fəallıq göstərib, Anti-Korrupsiya Prokurorları Şəbəkəsinin gələcək inkişaf perspektivləri, mühüm və mürəkkəb məsələlərin həllində üzv ölkələrin rolu ilə bağlı konkret təkliflər irəli sürüb və müzakirələr nəticəsində həmin təkliflər qəbul edilib. İclasda ABŞ, Yeni Zelandiya, Uqanda, Mavriki və digər ölkələrin nümayəndələri çıxış edərək beynəlxalq əməkdaşlığın dərinləşməsinin vacibliyini qeyd ediblər.

Sentyabrın 12-də konfransın ümumi yığıncağı keçirilib. Tədbirdə bir sıra mövzularla yanaşı, təşkilati məsələlərə də baxılıb və 2010-cu ildən etibarən BPA-nın İcrayyə Komitəsinin üzvü vəzifəsini daşıyan K.Əliyev qurumun vitse-prezidenti vəzifəsinə yekdilliklə seçilib. Həmçinin ölkəmizin ədliyyə və prokurorluq orqanlarının qurumun fəaliyyətinə vermiş olduğu töhfələr və yüksək səviyyəli işgüzar əlaqələr, habelə cari ilin 9-10 aprel tarixlərində Bakı şəhərində keçirilmiş İcraiyyə Komitəsinin 45-ci iclasının uğurla təşkil olunduğu nəzərə alınmaqla Azərbaycan Prokurorluğu xüsusi mükafatla - Assosiasiyanın Fəxri Sertifikatı ilə təltif edilib. Assosiasiyanın prezidenti Fəxri Sertifikatı Azərbaycan prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə təqdim edib. Həmin mükafatın rəsmi təqdimetmə mərasimində çıxış edən nümayəndə heyətinin rəhbəri ölkəmizin BPA ilə daim uğurlu əməkdaşlıq etdiyini bildirərək Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralovun bu münasibətlərə xüsusi önəm verdiyini, eyni zamanda Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun uzun illər BPA-nın ali idarə orqanı olan İcraiyyə Komitəsində təmsil olunduğunu və hazırda Assosiasiyanın Senatoru və fəxri üzvü olduğunu vurğulayaraq mükafata görə Azərbaycan hökuməti və baş prokurorun adından minnətdarlığını bildirib.

BPA-nın Prokurorların Qlobal Elektron Cinayət Şəbəkəsinin (GPEN) 10 illik yubileyi ilə bağlı təqdimatla çıxış edən Böyük Britaniyanın nümayəndəsi xanım Ester Jeorj son 10 il ərzində aparılmış işlər barədə ətraflı məlumat verib, eyni zamanda 10-11 oktyabr 2017-ci il tarixlərdə Azərbaycan hökumətinin dəstəyi ilə Bakı şəhərində Azərbaycan Respublikası Prokurorluğu və Beynəlxalq Prokurorlar Assosiasiyasının, həmçinin Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə keçirilmiş "Kibercinayətkarlıqla mübarizəyə dair Konfrans"ı Şəbəkənin uğurlu layihəsi kimi qiymətləndirib.

BPA-nın növbəti İllik Konfransının 2019-cu ilin sentyabrında Argentina Respublikasının Buenos-Ayres şəhərində keçirilməsi qərara alınıb.

Tədbirdə Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı müvəqqəti işlər vəkili Azad Nağıyev iştirak edib".

❑ **Müsavat.com**

## Prezidentdən şəhərsalma fəaliyyətinin tənzimlənməsi ilə bağlı mühüm fərman

### Yerli icra hakimiyyəti orqanları yalnız bu halda tikintiyə icazə verəcəklər



**Prezident İlham Əliyev şəhərsalma fəaliyyətinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında fərman imzalayıb.**

**Fərmanda deyilir:**

- Şəhərsalma fəaliyyətinin tənzimlənməsinin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1. Müəyyən edilsin ki:**

**1.1.** yerli icra hakimiyyəti orqanları yalnız tikinti layihəsinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğunluğu barədə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəyi olduqda tikintiyə icazə verirlər;

**1.2.** yerli icra hakimiyyəti orqanları və bələdiyyələr tikinti məqsədləri üçün torpaq sahələri ayırarkən (məlumatlandırma icraatı qaydasında yaşayış evlərinin tikintisi üçün ayrılan torpaq sahələri istisna olmaqla) həmin torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin müvafiq ərazinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) uyğunluğu barədə rəyi Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi verir.

**2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:**

**2.1.** qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, tikintisinə icazə tələb olunan binaların tikinti layihələrinin memarlıq həllərində müvafiq əraziyə uyğun memarlıq üslubuna riayət edilməsinin təmin olunması mexanizmi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.2.** Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 75.4-cü maddəsi çərçivəsində, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 mart tarixli 490 nömrəli Fərmanının 2-ci hissəsində nəzərdə tutulan tikintiyə icazə ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan və tikintinin təyinatına uyğun olaraq rəy bildirməli olan aidiyyəti qurumların siyahısında bu Fərmanın 1.1-ci bəndində göstərilən rəyin nəzərə alınmasını təmin etsin;

**2.3.** Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**2.4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.5.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**2.6.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tikintisinə icazə verilən binaların memarlıq planlaşdırma bölmələrində müvafiq əraziyə uyğun memarlıq üslubuna riayət edilməsinin təmin olunması üçün tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin. (AZƏRTAC)

## Bakını bürüyən toz dumanı - səbəb nədir...

### Umayra Tağıyeva: "Cənub-şərq axınları ilə hərəkət edən hava kütləsi Türkmənistandan bizim ərazimizə toz gətirib"

### Ekoloq: "Bakını bürüyən toz-dumanının səbəblərini ölkə ərazisində axtarmalıyıq" - ekspert

**Son günlər paytaxt Bakını toz dumanı bürüyüb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin mütəxəssisləri 30 avqust və 05 sentyabr tarixlərində monitorinq keçiriblər. Hər iki monitorinqin nəticəsinə görə havada olan tozun miqdarının sanitar normadan artıq olduğu məlum olub.

Sonuncu monitorinq zamanı tozlu dumanın ölkə ərazisinə cənub-şərq hava axınları vasitəsilə Türkmənistandan daxil olduğu bildirilib. Bakı və Abşeron yarımadasında tozun miqdarının sanitar normadan 3,6 dəfə yuxarı olduğu qeydə alınıb.

Lakin Bakının toz-dumana bürünməsinə ölkə ərazisində aparılan söküntü və tikinti işlərinin səbəb olduğunu düşünənlər də az deyil. Məlum olduğu kimi, hazırda Bakının bir çox rayonlarında köhnə binaların sökülməsi prosesinə başlanılıb. Bu isə havada tozun miqdarının artmasına səbəb olur.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan ekoloq Telman Zeynalov toz-dumanının qonşu ölkələrdən külək vasitəsilə paytaxt ərazisinə keçməsini mümkünsüz hesab edir:** "Son günlər toz-dumanının külək vasitəsilə qonşu ölkələrdən ölkə ərazisinə keçməsini yanlış hesab edirəm. Bu yaxınlarda elə də güclü külək olmayıb ki, buna səbəb yaransın. Əgər şimal, cənub və yaxud qərb küləkləri toz-dumanının gətirirsə, o zaman Bakıya yağış da gətirərdi. Bu problemin həllini ölkə ərazisində axtarmalıyıq".

**T.Zeynalov paytaxt Bakının toz-dumana bürünməsinin səbəbini kütləvi aparılan söküntü və tikinti işləri ilə əlaqələndirdi:** "Ümumiyyətlə, toz-dumanının yaranmasının səbəbi paytaxt Bakıda aparılan tikinti işləri ilə əlaqədardır. "Sovetski" adlanan ərazidə, xüsusilə də "Azdrama"nın yanında aparılan tikinti işləri buna bir misaldır. Yol kənarında, binaların yaxınlığında gecə-gündüz daş kəsirlər. Hər tərəf torpaq içindədir. Bu işləri aparmaq üçün ayrıca sex olmalıdır. Kim harada gəldi, necə gəldi iş aparır. Bütün bunlara ilk növbədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən nəzarət olunmalıdır. Bakıda yerli küləklər daha çox əsir. Bu səbəbdən də həmin toz-torpağı ətrafa yayır. Karxanalar və sexlərdə nəzarəti gücləndirmək əsasdır. Hər hansı ərazidə tikinti işləri aparılacaqsa, həmin torpaq yerinin sulanması tələb olunmalıdır. Tikinti zamanı tozun ətrafa yayılmasının qarşısını almaq mümkündür. Sadəcə, nəzarəti gücləndirmək və tələb etməkdir. Karxanaların fəaliyyətini dayandırsalar belə faydası yoxdur. Onun yerində qalan torpaq kütləsi külək vasitəsilə havaya qalxır. Nəticədə şəhəri toz-duman basır".

**"Yeni Müsavat"a açıqlamasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloji təbliğat sektorunun müdiri Umayra Tağıyeva bu iddiaları belə əsassız hesab edir:**

"Sadəcə, indi müasir texnika, peyk sistemlərinə əsaslanaraq təbiətdə baş verən hadisələri izləmək, proqnozlaşdırmaq və səbəbləri araşdırmaq imkanımız genişlənib. Cənub-şərq axınları ilə hərəkət edən hava kütləsi Türkmənistandan bizim ərazimizə toz gətirib. Biz bunu müasir rəqəmli modellərin nəticəsini təhlil edərək müəyyənləşdiririk, eyni zamanda peyk müşahidə sistemləri də bu fikri təsdiqləyir. Düzdür, tikinti zamanı, karxanalarda aparılan iş zamanı atmosferdə tozun miqdarı artır. Lakin bu proses lokal ərazini əhatə edir. Yəni çirklənmə mənbəyinə yaxın yerlərdə konsentrasiyalar daha çox olur. Hazırda müşahidə olunan proses sırf sinoptik proseslə bağlıdır. Türkmənistanda tozlu burulğan baş verib. Və həmin toz cənub - şərq axınları ilə tozlu bulud bizim üzərimizə hərəkət edib. Bu toz Abşeron yarımadasını bütövlüklə əhatə edib. 3 gün əvvəl tozun miqdarı normadan 5-6 dəfə çox deyildi. 5 gün bundan əvvəl, yaxud bir ay əvvəl şəhərdə tikinti yox idi? Daş karyerləri işləmirdi? İşləyirdi. Onda ilin 365 günü atmosferdə tozun miqdarı 5-6 dəfə çox olmalı idi".

❑ **Məğrur MƏRD, Musavat.com**

**Sentyabrın 17-dən Azərbaycan ordusunun növbəti genişmiqyaslı təlimləri başlayıb. Sentyabrın 22-dək davam edəcək təlimlərə 20 mindən artıq şəxsi heyət, 200-dən çox tank və digər zirehli texnika, 120-dən çox müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 10-dək qırıcı və bombardumançı, 20-dək müxtəlif təyinatlı ordu aviasiyası cəlb edilib.**



# Azərbaycan 5 günlük hərbi təlimlərə başladı - əsas hədəf

## Hərbi ekspert: "Azərbaycan bu təlimləri çox rahat bir şəkildə real döyüş əməliyyatlarına keçirə bilər"

Bakının erməni-daşnak işğalından azad edilməsinin yüz illiyi münasibətilə 15 sentyabrda keçirilən möhtəşəm hərbi paradın ardından hərbi təlimlərə start verilməsi diqqət çəkir. Bunun müharibə hazırlığı olduğu haqda fikirlər var.

**Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a bildirdi ki, belə təlimlər birdən-birə keçirilmir:** "Bu təlimlər ötən ilin sonlarında planlaşdırılmışdı. Sadəcə, bu il ərzində keçirilən iki paraddan biri hərbi təlimlərlə üst-üstə düşdü. Bu qədər şəxsi heyəti, hərbi texnikanı qısa müddətdə bir araya gətirmək elə də asan məsələ deyil. Bu baxımdan belə təlimlər əvvəlcədən müəyyən edilir və hazırlıqlar görülür. Burada hansısa fors-major hadisədən danışmağa dəyməz. Amma sirr deyil ki, bu təlimlərin hər birinin məqsədi işğal altında olan ərazilərin düşməndən azad edilməsidir. Bunu Müdafiə Nazirliyi də açıq şəkildə etiraf edir. Əməliyyat-taktiki təlimlər əsasən bu məqsədlə keçirilir. Əvvəlki təlimlərdə konkret ad, istiqamət göstərmirdik. Amma bu dəfə Müdafiə Nazirliyi konkret olaraq göstərir ki, bu təlimlərdə əsas məqsəd düşmən müdafiəsinin tanklar vasitəsilə müxtəlif istiqamətlərdən yarılmasıdır, yəni sırf Qarabağla bağlı təlimlərdir. Demək olar, bu təlim ərazilərimizin azad edilməsi üçün son məşqlərdən biridir. Belə təlimlər indiyə qədər az keçirilməyib. Amma budəfəki təlimdə iştirak edən şəxsi heyət, texnikalar və digər vasitələr göstərir ki, bu, hərbi oyundur. Lakin istənilən halda heç kəs deyə bilməz ki, bu, real döyüş əməliyyatlarına keçməyəcək. Ola bilsin, beş günlük təlimlərin müəyyən mərhələsində konkret Ali Baş Komandan, yaxud müdafiə naziri tərəfindən qərar qəbul olunsun, yəni bu, təlimlər deyil, ərazilərimizin azad edilməsi əməliyyatı olsun. Subyektiv olsa da, mən bu məsələyə, açığı, bir qədər fərqli yanaşıram. Azərbaycan hələ ki danışıqlar prosesinə daha çox üstünlük verir. Bu danışıqlar prosesi də düşüncəmə görə, mənasızdır. ATƏT-in Minsk Qrupunun həmsədrləri Paşinyanın sonuncu dəfə Qarabağla bağlı səsləndirdiyi fikirlərə vicdansızcasına susqunluq nümayiş etdirdilər. Heç səsləri də çıxmadı. Əslində reaksiya vermək onların birbaşa vəzifə borcları idi. Amma bunu etmədilər. Azərbaycan bu təlimləri çox rahat bir şəkildə real döyüş əməliyyatlarına keçirə bilər. Bu zaman həmsədrlər hansısa bir narazılıqlarını bildirsələr, Azərbaycanın onlardan çəkinəcəyi bir şey ola bilməz. Çünki onların deməyə sözləri olmayacaq. Azərbaycan konkret olaraq beynəlxalq qurumlara bəyan edə bilər ki, ərazilərimizi işğal etmək arzusunda olan bir dövlətə qarşı necə davranmalıyıq? Bu nöqteyi-nəzərdən düşünürəm ki, indiki təlimlərin əhəmiyyəti olduqca böyükdür. Hər birimiz onu arzulayırıq ki, tez bir zamanda bu məsələ öz müsbət həllini tapsın. Biz bu məsələni beynəlxalq güclərin öhdəsinə buraxdıqca məsələnin həlli daha da uzanır".

**Ekspertə görə, belə təlimlərin siyasi əhəmiyyəti də olduqca böyükdür:** "Əvvəla, bir ölkə il ərzində bir parad keçirir. Amma Azərbaycan iki möhtəşəm parad keçirdi və xüsusilə ikinci paradda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın da iştirakı düşmən ölkəyə və onun havadarlarına bir mesaj oldu. Nəzərə alsaq ki, Türkiyə və Rusiya prezidentləri Soçidə görüşdülər. Düşünmürəm ki, yaxın günlərdə aktiv döyüş əməliyyatlarına başlansın. Hərçənd düşmənin bir neçə təxribatı olub. Ermənistan-Azərbaycan sərhədində düşmənlərimiz təxribata əl atsalar da, hərbi qüvvələrimiz çox layiqli bir şəkildə onları cəzalandırıblar. Onlar ağır bir zərbə alıblar. Bu zərbənin içərisində düşmənin mövqe itkiləri var. Son baş verənlər düşmənə bir xəbərdarlıqdır ki, əgər bundan sonra təxribatlara davam etsələr, Azərbaycan tərəfinin başqa çıxış yolu qalmayacaq. Belə olan təqdirdə isə bütün Qarabağ istiqamətində əməliyyatlara başlama əmri verilə bilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# "Qarabağ mitinqi siyasi qüvvələr üçün barometr rolunu oynayacaq"

## QAT sədrindən mitinqdə iştirakla bağlı açıqlama

**Qarabağ Komitəsi sentyabrın 29-da saat 15:00-dan 17:00-a qədər "Qarabağa azadlıq!" şüarı ilə "İnşaatçılar" metro stansiyasının yaxınlığında yerləşən "Məhsul" stadionunda mitinq keçirməyi planlaşdırır. Artıq yer üçün sentyabrın 12-də Bakı Şəhər İcra Hakimiyyətinə müraciət ünvanlanıb. Hələ ki qarşıda xeyli vaxt olduğu üçün Bakı Şəhər İcra Hakimiyyətindən müraciətə cavab verilməyib. Bundan əvvəl təyin olunmuş mitinqə razılıq verilməmişdi. BŞİH-in bu dəfə də mitinqə icazə verib-verməyəcəyi suallar doğurur.**


Akif Nağı

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, BŞİH-in müraciətə müsbət cavab verməsinə ümid edirlər: "Bu mitinqin məqsədi indiki beynəlxalq münasibətlərin həssas məqamında Qarabağ məsələsini gündəmə gətirməkdir. Beynəlxalq aləmə Qarabağ məsələsinin Azərbaycan cəmiyyəti üçün əsas problem olduğunu nümayiş etdirmək istəyirik. Eyni zamanda bu mitinq xalqımızın və onun milli vətənpərvər qüvvələrinin Qarabağı unutmadığını, torpaqlarını azad etmək üçün hər cür addıma, o cümlədən vətən müharibəsinə hazır olduğunu, bu problem ətrafında cəmiyyətimizin bütün təbəqələrinin birləşdiyini göstərmək məqsədi daşıyır. Məqsədimiz torpaqlarımızın azad edilməsinə öz töhfəmizi verməkdir. Məgər BŞİH bunu istəmir? Torpaqlarımızın azadlığı uğrunda mübarizəyə hazırlaşmalıyıq. İqtidarlar orduları müharibəyə hazırlaya bilər. Amma cəmiyyəti, xalqı müharibəyə onun milli vətənpərvər qüvvələrinin hərəkətə gəlməsi hazırlaşdırar. Əsas məqsədimiz Qarabağın əsas məsələ kimi gündəmə gətirilməsidir. Bu, siyasi aksiya deyil, mitinqdə siyasi şüarlar və tələblər də qoyulmayacaq".

Bəs Qarabağ mitinqində iştirak üçün hakim partiyaya, digər siyasi, ictimai təşkilatlara dəvət göndəriləcəkmi?

**Akif Nağı qeyd etdi ki, hələlik heç bir təşkilat rəsmi dəvət edilməyib. Bu məsələ müzakirə olunacaq:** "Qarabağ Mitinq Komitəsini yaradarkən YAP icra katibi Əli Əhmədova məktub göndərdik. Məktubda göstərirdik ki, Qarabağ ümummilli problemdir, hər kəs, o cümlədən YAP üzvləri Qarabağın azadlığı tələbinə dəstək verməlidir. Komitədə siyasi təşkilatlara dəvət məsələsi bir daha müzakirə olunacaq. Amma müzakirəsiz də mətbuat vasitəsilə dəfələrlə demişik ki, bütün siyasi, ictimai qüvvələr, bütün vətəndaşlar mitinqə gəlməli, Qarabağın azadlığı tələbini qoymalıdır. Qarabağın azadlığını istəyən hər kəs bu mitinqdə birlikdə olmalıdır. Əslində bu mitinq bütün siyasi təşkilatların Qarabağ məsələsinə münasibətini ölçəcək barometr rolunu da oynayacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Silahları təyinatı üzrə işlətməyin vaxtı çatmayıbmı?..



**Hüseynbala SƏLİMOV**

**Həqiqəti müvəqqəti ört-basdır etmək olar, amma əbədi susdurmaq mümkün deyil - təsadüfi deyil ki, o, artıq Avropa liderlərinin dilindən səslənir.**

"Biz görürük ki, NATO-ya və Avropa İttifaqına üzv olmayan keçmiş sovet ölkələrinin hamısı Rusiya tərəfindən yaradılan konfliktlərdən əziyyət çəkir. Bu gün həmin ölkələrin hamısı öz ərazi bütövlüyünü bərpa etmək üçün cəhdlər edir, çünki Rusiya ya onların ərazisnin bir hissəsini onların nəzarətindən çıxarıb, ya da bu hissələrdə konfliktlər yaradıbdır".

Bəli, çox düzgün və sərrast deyilibdir. Xüsusən də nəzərə alanda ki, bunu qeyri bir kəs yox, Almaniyanın kansleri Angela Merkel deyibdir, onda bu sözlərin çəkisi bir az da artır.

Yada salaq ki, Merkel belə dəqiq açıqlamalarla birinci dəfə deyil ki, çıxış edir - hələ bir necə il bundan öncə eyni bir açıqlama ilə Almnaiya kansleri Azərbaycan prezidentilə görüşü zamanı da çıxış etmişdi.

İndi də Baltik ölkələrindəki alman hərbçiləri qarşısında çıxışı zamanı xanım Merkelin bu cür fikirləri dilə gətirməsi müstəsna əhəmiyyətli bir məsələdir. Ona görə ki, Almaniya həm də Avropa İttifaqı deməkdir və bu gün A.Merkelin dilindən səslənən fikirlər sabah getdikcə Dünya içrə daha böyük rol oynamağa cəhd edən Avropa İttifaqının da mövqeyi ola bilər.

Bilirəm, iti ağıllı oxucu deyəcək ki, A.Merkel çox ziddiyyətli siyasətçidir. Düzdür, razıyıq, ziddiyyətlər elə kanslerin Baltik ölkələrinin rəhbərlərilə görüşlərində də özünü biruzə veribdi.

Baltik ölkələri Almaniya ilə Rusiya arasındakı "Şimal axını" qaz layihəsinin əleyhinə çıxır və israrla "Biz enerji baxımdan Rusiyadan asılı olmağın fəsadlarını yaşamışıq" deyirlər. Demək olmaz ki, Merkel onların narahatlığını bölüşmür. Yox, belə deyil. Yuxarıda gətirdiyimiz sitatın özü də gösətirir ki, Merkel Kremlin regionda apardığı siyasətin də fərqindədir. Sadəcə, Almaniya lideri həmişə göstərmək istəyir ki, onun ölkəsinin və ümumiyyətlə, Avropanın Rusiyaya münasibətdə qərəzi və yaxud məkri yoxdur, Avropa Rusiya ilə də yeni münasibətlər qurmağa hazırdır. Bunun üçün Rusiya dəyişməli, ən azı keçmiş sovet ölkələrinə münasibətdə yeni siyasət aparmalıdır.

Məsələn, A.Merkel həmişə Ukrayna böhranını önə çəkir və bildirir ki, Rusiya Minsk razılaşmalarına əməl etməyincə ona qarşı sanksiyalar heç bir halda aradan qaldırılmayacaqdır.

Məsələnin ən əlamətdar tərəfi isə budur ki, bu dəfə Merkel təkcə Ukrayna ilə məhdudlaşmayıb, digər ölkələrin, Azərbaycanın da adını çəkibdir.

Bəli, Gürcüstandan, Ukraynadan və Moldovadan fərqli olaraq biz müəyyən səbəblərdən bir çox şeyləri öz adları ilə adlandırmaq istəmirik. Belə yanaşma ilə razılaşmaq da olar, mübahisə açmaq da.

Məsələn, bu aspektdə demək olar ki, Rusiyanın bölgədəki roluna işıq tutan və hazırda Kremllə ciddi problemlər yaşayan Gürcüstan da böyük hesabla heç nəyə nail olmayıbdır.

Amma məsələnin başqa tərəfi də var. Məsələn, həmişə gileylənirik ki, Qərb dövlətləri Gürcüstanın ərazi bütövlüyünə münasibətdə daha ardıcıl mövqe tutur. Fəqət, bəlkə bu da onun nəticəsidi ki, Tbilisi öz problemini daha ciddi və necə deyərlər, olduğu kimi təqdim edir?..

Ruslar da Dağlıq Qarabağ probleminə münasibətdə özlərini elə qələmə verirlər ki, guya bu konfliktdə onların iştirakı digər həmsədrlər, ABŞ və Fransa qədərdir. Amma belə deyil axı!.. Xanım Merkelin də qeyd etdiyi kimi bütün bu münaqişələrin, o cümlədən Dağlıq Qarabağ konfliktinin də arxasında Rusiya dayanır.

Bu səbəbdən bir daha deyirik ki, reallığın Avropada da olduğu kimi dərki bizim xeyrimizədir. İllərlə dedik, gileyləndik və hətta yalvardıq ki, Dünya birliyi probleme biganədi, onu həll etməyə çalışmır.

Ötən dəfələrdə də yazmışdıq ki, vurğuları dəyişməyin vaxtı yetişibdi: biz özümüz də problemi həll edə bilərik, yetər ki, Dünya ölkələri, o cümlədən də Rusiya bizim haqqımızı tanısın və münaqişəyə adekvat, ədalətli siyasi münasibət sərgiləsin. Qalanı isə, lap elə Üzeyir bəyin çox məşhur operettasında, "O olmasın, bu olsun"da deyilən kimi; Sərvərin boynuna...

Bilirsiniz, hər il silah arsenalını yeniləmək və ya gücləndirmək üçün böyük maliyyə vəsaitləri xərcləmək və eyni zamanda ərazimizin 20 faizinin hələ də düşmənin nəzarətində olması ilə barışmaq - etiraf edək ki, bu, çox ağır bir dərddir. Dərhal sual yaranır ki, onda bu silahlar bizim nəyimizə lazımdır? Üstəlik, hərbi texnikanın məhdud yararlılıq müddəti var: silahlar köhnəlir və ya onlarında daha mükəmməli meydana çıxır. O səbəbdən də silahları təyinatı üzrə işlətməyin vaxtı çatmayıbmı? Bu sual sizə ritorik görünməsin - ritorikanı bitirmək zamanıdır...



# Rüşvət lifti

Zamin HACI
zaminhaci@gmail.com

"Mən ağacın özü yox, mənası olmaq istəyirəm"
*(Orxan Pamuk, "Mənim adım Qırmızı")*

**Amerikada belə qanun var: hansısa şirkət xaricdə kiməsə rüşvət versə onu cinayət məsuliyyətinə cəlb edirlər. Əcəb ölkədir. Biz heç öz ölkəmizdə rüşvət verəni tuta bilmirik, gəl gör xaricdə olsun. Hətta bizdə xaricdə rüşvət vermək respublikamızın dünya şöhrətini artırmaq, lobbiçilik siyasəti sayılır. Uzun sözün qısası, amerikalılar indi də o qanunu bir liftqayıran şirkətlərinə tətbiq ediblər. Araşdırmalar nəticəsində ortaya çıxıb ki, sən demə, bu şirkət Azərbaycanda, konkret Bakı şəhərində lift remontu ilə məşğul olan idarənin şefinə neçə milyon dollarsa rüşvət veribmiş. Ki, Bakıya lift lazım olanda onların malını alsınlar.**

Ləzzətli söhbətdir. Həm də ona görə ki, bizim həmin lift idarəsinin şefinin ailəsində bir ara çox bahalı toy mərasimi çalınmış, dillərdə dastan olmuşdu. İndi belə çıxır liftçilərimiz yuxarı qalxmaq, toy eləmək, külfət saxlamaq üçün hətta yankiləri də soyurmuşlar. Vallah, halal olsun. Amerika dünyanı soyur, bizimkilər də amerikalıları.

Biz bu lift remontu işinə dırnaqarası baxırıq, fikirləşirik axı bunda nə pul olacaq, it damına oxşayan, içinə sərxoşların kiçik ehtiyacını ödədiyi, vaxtaşırı qırılıb içindəki zəhmətkeşlərimizlə birgə dambadurumla cəhənnəmin dibinə yuvarlanan axmaq qurğulardır. Sən demə, burada pul zibil kimiymiş. Lapatka ilə kürü, yığ zənbilə, qalx yuxarı mərtəbəyə. Ya da en zirzəmiyə, orada siçan kimi gizlənib xımır-xımır ye. Heç kəs sənə gözün üstdə qaşın, liftin qapısı arasında başın, Amerikada rüşvət yoldaşın vardır deməyəcəkdir.

Sözgəlişi, amerikalılar öz lift şirkətləri ilə məhkəmədən öncə danışıb razılığa gəliblər, söhbəti bağlayıblar. Orada belə qanun da var ki, kim istəsə iş məhkəməyə getməsin, müəyyən cəriməni ödəyib aradan çıxa bilir. Prinsipcə, oxşar prosedur bizdə də var, sadəcə, qanuni şəkildə olmur. Lazımi orqanların lazımi şəxslərini tapıb haqq-hesabı verirsən, "krışa" kimdirsə ona görüm-baxım edirsən, vəssalam-şüttamam. Ondan sonra lap istəsən şəxsi liftinə qızıldan qapı, brilyantdan düymə qoy. Lifti küçəyə çıxardıb təkər tax, Neftçilər prospektində avtoşluq elə. Lift şaxtasında it saxla, balqabaq ək, nə bilim, musiqili fəvvarə qayır - o sənin fantaziyandan asılıdır.

Ancaq tam cəzasızlıq olduğunu iddia etsək qələmimiz əyilər, klaviaturamız islanar, ekranımıza virus düşər. Cinayət varsa, cəza da olmalıdır. Cəza varsa, cinayət də həmçinin. Misal üçün, bizdə siyasi dustaqlar var. Onları niyə tutublar? Bəziləri deyir günahsızdırlar, hökumətin xoşuna gəlmədikləri üçün tutulublar. Lakin görürsən bu yoldaşların hərəsinə bir ayrı cürə cəza yapışdırılıbdır. Biri 2 il alıb, başqası 5 il, üçüncü 6 il yarım və sairə. Deməli burada nəsə fərq var da bə. O hakimlər əks halda üçillik dustaqla beşilliyi necə fərqləndirə bilərdilər? Bir sovet anekdotunda təxminən bu hüququn aliliyi təsvir olunmuşdu, ağsaqqalların yadına gələr. Deyir iki dustaq söhbətləşir, biri o birindən soruşur ki, neçə il almısan, cavab verir 10 il, özü də heç nəyə görə. Adam deyir yalan demə, bizdə heç nəyə görə uzağı 5 il verirlər. Getsin gəlməsin, axmaq günlər idi. Yenə indi müstəqil dövlətik, Qarabağ bizimdir.

Cəzadan danışırdıq, bir az uzağa getdik. Bax, həmin lift idarəsi həmin maxinasiyaları edəndə (elə indi də) Bakı Şəhər İcra Hakimiyyətinin tərkibində idi. Dözülməz vəziyyət yaratdığı üçün biz idarənin şefini işdən çıxardıb baş nazirə müavin qoymuşuq. Qoy indi cəzasını çəksin. Bir az da belə pis səs-soraq gəlsə "İstiqlalımızın bülluru" ordeniylə təltif edib baş nazir qoyarıq. Xalq üçün əziyyət çəksin deyə. Xalq üçün ağlayan göz kor olmalıdır.




# Paşinyan Makrona şikayətləndi - Bakı cavabı hərbi paraddan verdi

## İrəvanın fiasko olan "dəvəquşu" taktikası: erməni baş nazir "iki stul"da oturmaq siyasətini qərbyönlü kurs kimi Qərbin özünə baha qiymətə satmaq istəyir - nonsens...

**Ötən həftəsonu Ermənistanın baş naziri Nikol Paşinyan Fransada işgüzar səfərdə olub. Səfər çərçivəsində o, prezident Emmanuel Makronla və bu ölkədəki erməni icması ilə görüşlər keçirib. "Yeni Müsavat"ın erməni qaynaqlarına istinadən verdiyi məlumata görə, görüş zamanı Dağlıq Qarabağ mövzusu da diqqət mərkəzində olub.**

Gələn məlumatlara əsasən, Makron Qarabağ məsələsinin nizamlanması perspektivi ilə maraqlanıb, erməni baş nazir isə ona belə cavab verib: "Nizamlanma yalnız Azərbaycanın davranışından asılıdır və əgər həmsədrlər istəyirlərsə ki, sülh prosesi irəli getsin, o zaman davakar ritorika və müharibə dili ilə danışan Azərbaycana öz yerini göstərməlidirlər. Əliyev hələ də başa düşməyib ki, artıq onun qarşısında bütün erməniliyi birləşdirən tamamilə başqa, yeni bir Ermənistan var".

Gerçəyin baş-ayaq təsəvvüründən doğan bu fitnəkar açıqlama əslində erməni baş nazirin Parisdən Bakının ünvanına səsləndirdiyi hədədən daha çox, Makrona Azərbaycan prezidentindən şikayətlənməsi anlamına gəlir. Həmçinin Paşinyanın Rusiya prezidenti Vladimir Putinlə Soçidə uğursuz görüşündən dolayı özünü təzədən Qərbin gözündə "demokratiya cəfakeşi" kimi dirçəltmək cəhdi təsiri bağışlayır.

Ermənistan rəhbərinin son qızışdırıcı bəyanatı İsrailin müdafiə naziri Avidqor Libermanın Azərbaycana səfərindən dərhal sonra verməsi də diqqət çəkir - hansı səfər ki, heç şübhəsiz, İsraillə Azərbaycan arasında hərbi-texniki sahədə əməkdaşlığın daha da dərinləşməsinə, yekun etibarilə ölkəmizin hərbi qüdrəti və müharibə hazırlığının artmasına gətirəcək. Düşmən ölkəni qıcıqlandıran həm də budur - Ermənistanın Rusiya ilə münasibətlərinin soyuması fonunda Azərbaycanın öz hərbi üstünlüyünü böyütməyə davam eləməsi.

İnqilabdan sonra "başqa bir Ermənistanın peyda olması" və bütün ermənilərin Paşinyan ətrafında sıx birləşməsi ilə bağlı iddiaya gəlincə, bu da ilğımdan savayı bir şey deyil. Hər halda, dünya hələ ki təcavüzkar ölkədə hakimiyyət dəyişikliyindən savayı hansısa digər kardinal dəyişiklik müşahidə eləmir. Xüsusən də əhalini sosial-iqtisadi durumu və xarici siyasət oriyentasiyasında dönüş gözə çarpmır. Paşinyanın Dağlıq Qarabağ mövzusunda sərsəmləmələri isə ədalətli sülhə yox, yalnız müharibəyə aparan birbaşa yoldur.

*****

Məsələ də ondadır ki, əgər "məxməri inqilab" işğalçı ölkənin Rusiya asılılığından xilasına gətirməyibsə və gətirməsi gözlənilmirsə, deməli, N.Paşinyanın iddia elədiyi kimi, daha "monolit erməni xalqı" faktoru ilə Azərbaycan da daxil, yenə heç kim hesablaşmayacaq. Artıq Avropa və ABŞ da erməni inqilabının əsas hədəfə çatmadığı qənaətindədir və Paşinyan və komandasına, onun "islahatlarına" laqeyd yanaşır.

Qərb paytaxtlarında onu da anlayıblar ki (8 sentyabr Soçi görüşü bunu təsdiqlədi), Paşinyan Ermənistanı Kremlin təsir zonasından uzaqlaşdırmağa qadir deyil. Moskvadan "cin bismillahdan qorxan kimi" qorxan Nikol Paşinyan, sadəcə, Serj Sərkisyanın "iki stulda" oturmaq siyasətini daha incə, daha hiylələr şəkildə aparmağa çalışır. Bu isə Avropa və ABŞ-ın Ermənistana böyük maliyyə-siyasi dəstəyi üçün yetərli deyil.

Odur ki, Paşinyanın gələn həftə Nyu-Yorkda BMT Baş Məclisi çərçivəsində ABŞ prezidenti Donald Trampla görüşü baş tutsa belə, bu, heç nəyi dəyişməyəcək. Paşinyan Avropa kimi, Amerikadan da "əli ətəyindən uzun" geri dönəcək. O cümlədən son günlər Qarabağ məsələsində xüsusilə radikal mövqe tutan və bir-birinə zidd bəyanatlar verən erməni baş nazirin Ağ Evdən real dəstək alması qeyri-mümkün görünür.

Məntiq də deyir ki, rəsmi Vaşinqton Moskvanın hərbi forpostu kimi qala-qala Ermənistana dəstəkçi ola bilməz. Di gəl, Paşinyan hələ də "iki stul"da oturmaq siyasətini utanıb eləmədən qərbyönlü kurs kimi Qərbin özünə sırımağa, baha qiymətə satmağa çalışır. Bunu "dəvəquşu taktikası" da adlandırmaq olar.

*****

Görünən həmçinin budur ki, Paşinyan Ermənistanı demokratikləşdirməklə (??) Dağlıq Qarabağın işğalını qanuniləşdirəcəyini düşünür. Dünyanın işğala haqq qazandıracağına ümid edir. Bu da illüziyadır. Çünki demokratiya ən əvvəl təməl insan haqlarına və beynəlxalq hüququn aliliyinə hörmət deməkdir. Beynəlxalq hüquq isə 1 milyona yaxın vətəndaşının elementar yaşam haqqının pozulduğu, ərazisinin 1/5-i işğal altında olan Azərbaycanın tərəfindədir. Başqa yandan, Rusiyanın təsir zonasında yerləşən, onun marioneti olan bir ölkənin demokratikləşməsi qeyri-mümkündür. Bu acı gerçəyi bir azdan Paşinyan da anlayacaq.

**Bu xüsusda "Washington times" qəzetinin yazarı, ABŞ Xarici Siyasət üzrə Şurasının elmi əməkdaşı Stiven Blankın Ermənistanla bağlı son təhlili məqaləsində bir sitat yerinə düşür:** "Nə qədər ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır, onun üçün sülh heç vaxt olmayacaq. Əvəzində o, Ermənistanda demokratikləşmə prosesini həmişə boğmaq istəyən Moskvanın asılılığında qalmaqda davam edəcək. Azərbaycanla sülh bağlamaq Ermənistan üçün demokratiya yolunda ilkin şərtdir. Ermənistanın demokratikləşməsi, inkişafı, habelə Qərbin güclü dəstəyini əldə etməsi üçün yeganə təminat vasitəsi budur. Müharibə Rusiyaya İrəvanı itaətə məcbur etmək və Paşinyanın islahatlarını pozmaq və şəxsən özünü gözdən salmaq üçün çoxsaylı imkanlar bəxş edir".

**Amerikalı tanınmış politoloqa görə, Paşinyan Trampla görüşün baş tutmasını istəyirsə, ABŞ-ın əlinə onu dəstəkləmək üçün səbəb verməlidir.** "Lakin Ermənistanın Moskvaya tabeçiliyi, habelə Azərbaycanın Dağlıq Qarabağın da hüdudlarından kənara çıxan torpaqlarını işğal altında tutması ABŞ-ın dəstəyi və demokratiya ilə bir araya sığmır. Müharibə və müstəqil demokratik islahatlar Moskvanın nəzarəti altında birlikdə gedə bilməz. Paşinyan rus süngülərinə dayanaraq Azərbaycan ərazilərini işğal altında tutmaqda davam edərək demokratikləşdirməni həyata keçirmək istəyirsə, olduqca yanılır", - deyə analitik vurğulayıb.

*****

O ki qaldı Paşinyanın Parisdə Azərbaycan prezidenti əleyhinə verdiyi bəyanata, ona reaksiya gecikmədi. Əlamətdardır ki, bu reaksiya Bakının Qafqaz İslam Ordusu tərəfindən qurtuluşunun 100 illiyi ilə bağlı paytaxtda keçirilən hərbi paradda, Türkiyə-Azərbaycan hərbi müttəfiqliyinin sarsılmazlığının nümayişi fonunda verildi.

Belə ki, həm Azərbaycan prezidenti İlham Əliyev, həm də Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan paradda İrəvanın müharibədən sığortalanması və sülh istəyinin ən sadə şərtini bəyan etdilər - işğala qeyd-şərtsiz son verilməsi. İlham Əliyev "gün gələcək Azərbaycanın dövlət bayrağı işğal altındakı bütün torpaqlarımızda dalğalanacaq" dedi. Öz növbəsində Ərdoğan Qarabağ məsələsində qardaş ölkənin prinsipial mövqeyini bir daha dilə gətirərək, Azərbaycan torpaqları işğaldan azad edilməyincə sərhədlərin açılmayacağını, bunu gözləyənlərin boşuna gözlədiklərini qəti şəkildə söylədi.

Bundan da aydın mövqe? Necə deyərlər, "top" düşmən ölkənin meydanındadır. Hərb, yoxsa sülh seçimini o edəcək...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 195 (7084) 18 sentyabr 2018

# 100 il əvvəl və 100 il sonra Bakıdan dünyaya verilən mesaj

## 15 sentyabr paradının ortaya çıxardığı gerçəklik; **politoloq:** “Ermənistan rəhbərliyi bu mesajlardan və paraddan nəticə çıxarmalıdır...”

**Sentyabrın 15-də paytaxtın Azadlıq meydanında Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirildi. Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan paradda iştirak ediblər.**



Qardaşlığın, sədaqətin rəmzinə çevrilən bu hadisə Azərbaycan-Türkiyə birliyinin sarsılmaz və əbədi olduğunu göstərdi.

**Paradda Ali Baş Komandan İlham Əliyev və Türkiyə lideri Ərdoğan çıxış etdilər. Azərbaycan prezidenti öz çıxışında ölkəmizin ordu quruculuğu sahəsində də böyük uğurlar əldə etdiyini dedi:** “Bu gün Azərbaycan ordusu beynəlxalq reytinqlərə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Bizim hərbi potensialımız artır. Bizim güclü ordumuza böyük ehtiyacımız var. Çünki torpaqlarımız işğal altındadır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaq”.

**İlham Əliyev 15 sentyabrı sözün əsl mənada tarixi bir gün, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günü adlandırıb:** “Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir. 100 il bundan əvvəl Nuru paşanın Qafqaz İslam Ordusunun və Azərbaycan Milli Ordusunun birgə əməliyyatı nəticəsində Bakı işğalçılardan azad edildi. Bir gündən çox davam edən şiddətli döyüşlərdə bizim əcdadlarımız əsl qəhrəmanlıq, şücaət göstərmişlər. Onu da qeyd etməliyəm ki, bu tarixi zəfərdən iki gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya gəlib və Bakı Azərbaycan dövlətinin paytaxtı elan edilib. Bizim qədim şəhərimiz, Azərbaycan xalqının qədim şəhəri Bakı öz əsl sahibinə qayıdıb. Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır”.

**Türkiyə prezidenti isə çıxışında qeyd edib ki, Türkiyə dünyanın 34 ölkəsində 78 şəhid məzarlığı olan ölkədir. Türkiyə Azərbaycan uğrunda 1132 şəhid verib:** “Azərbaycan Türkiyədən sonra ən çox şəhidimizin olduğu ölkədir. Buradakı məzarlarda yanaşı uyuyan şəhidlərimiz, eyni zamanda ölkələrimiz arasındakı birgə taleyin təmsilçiləridir. Türkiyə və Azərbaycan tarixi bir, mədəniyyəti bir, dili bir, dini bir iki qardaş ölkədir... Qafqaz İslam Ordusunun və Azərbaycan Ordusunun 1918-ci ildə burada həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin edərək bugünkü müstəqilliyinin təməlini qoyub. Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etməsindən sonra onu ilk tanıyan ölkənin Türkiyə Respublikası olması heç də təsadüfi deyil. Bu, qan qardaşlığımızın təbii nəticəsidir. Türkiyə olaraq müstəqilliyinin ilk dövrlərindən başlayaraq Azərbaycana əlimizdən gələn hər cür dəstəyi göstərdik və göstərməyə davam edəcəyik.



Bu gün Türkiyə Azərbaycanın, sadəcə, siyasi və hərbi deyil, eyni zamanda ticarət, iqtisadiyyat, mədəniyyət və digər bütün sahələrdə ən mühüm tərəfdaşıdır".

Dövlət başçılarının geniş çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi olub. Qarnizonun birlik, birləşmə, hərbi hissə, dövlət xidmətləri və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən parad heyətləri tribunaya doğru irəliləyib. Qarşıda Azərbaycan Respublikasının dövlət bayrağı, onun ardınca isə Azərbaycan ordusunun qoşun növlərinin bayraqları gətirilib. 2016-cı ilin aprelində Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər rayonlarında və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək min hektarlarla ərazinin nəzarətə götürülməsində xüsusilə fərqlənən hərbi hissələrin döyüş bayraqları da parada gətirilib. Cəmşid Naxçıvanski adına hərbi liseyin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarından, Bakı Qarnizonu zabitlərindən ibarət parad heyəti tribunanın önündən keçdilər. Meydana Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən parad heyəti, Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları daxil olublar.

Daha sonra Bakı Qarnizonunun birlik, birləşmə və hərbi hissələrinin xüsusi texnikaları və silah sistemlərinin keçidi olub.

Paradı xüsusi təyinatlı avtomobil texnikaları, zirehli-tank texnikası, Hava Hücumundan Müdafiə silahları sistemlərinin, artilleriya silahları və əməliyyat taktiki raket sistemlərinin kolonları davam etdirib. Türkiyə Silahlı Qüvvələrinin məşhur “Mehtəran” birliyi “Mehtər marşı”nın sədaları altında Azadlıq meydanına daxil olub. “Mehtəran” birliyi tribuna ilə üz-üzə dayanaraq “Əsgər marşı”nı ifa edib. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Osmanlı Türkiyəsi və Azərbaycanın milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin dövlət bayraqları altında tribuna önündən keçiblər. Azadlıq meydanı üzərindən Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin döyüş helikopterləri və təyyarələrinin uçuşu olub. Hərbi Hava Qüvvələrinin uçuş nümayişini “Mi-17" tipli iki helikopter açıb. Birinci helikopter Azərbaycan Respublikasının dövlət bayrağını, ikinci helikopter isə Türkiyə Respublikasının dövlət bayrağını aparıb. ”Su-25" hücum təyyarələri Bakı səmasında Azərbaycanın dövlət bayrağının təsvirini yaradıblar. “MiQ-29" təyyarəsi yüksək pilotaj fiqurları nümayiş etdirib.

Sonra Türkiyə Silahlı Qüvvələrinin “Türk Ulduzları”nın uçuşları başlayıb. Türkiyəli şahinlər Azadlıq meydanı üzərində yüksək məharətlərini nümayiş etdiriblər, Azərbaycanın və Türkiyənin dostluğunun, qardaşlığının və qəlb birliyinin rəmzi olan ürək şəkli çəkiblər.

Bununla da Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad başa çatıb. Bundan sonra dövlət başçıları Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyi münasibətilə Türkiyədə hazırlanan xatirə markasını və ilk zərfi imzalayıblar.

Siyasi və hərbi ekspertlər hesab edir ki, yüzlərlə hərbi texnikanın, uçuş vasitələrinin, zirehli texnikaların, raket və artilleriya silahlarının, hava hücumundan müdafiə sistemlərinin, helikopterlərin, pilotsuz uçuş aparatlarının, digər silah və texnikanın nümayiş olunduğu bu parad son illərdə ordumuzun əhəmiyyətli dərəcədə gücləndiyini bir daha göstərib.

**Politoloq Qabil Hüseynli “Yeni Müsavat”a şərhində bildirdi ki, əvvəla, bu parad Bakının azad olunması üçün şəhid və qazi olanların, ümumiyyətlə, bütün zəhməti olanların ruhuna böyük ehtiram əlaməti idi:** “Prezident İlham Əliyev də çıxışında bu ehtiramı xüsusi nümayiş etdirdi. Bu paradı çox böyük tarixi hadisə kimi dəyərləndirmək lazımdır. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı ilə Türkiyə Silahlı Qüvvələrinin Ali Baş Komandanının tribunada çiyin-çiyinə dayanıb hərbi parad qəbul etməsi sıradan bir hadisə deyil. Bu hadisə Azərbaycan və Türkiyə vətəndaşlarına, həmçinin dünyaya mesaj idi. Xüsusilə Ermənistana mesaj da saymaq lazımdır bu hadisəni. Azərbaycan və Türkiyə prezidentlərinin çıxışlarına diqqət etdikdə görürük ki, son dərəcə ciddi mesajlar verilib. Ermənistan bu xəbərdarlıq xarakterli mesajlardan nəticə çıxarmalıdır. Rəcəb Tayyib Ərdoğan Azərbaycan və Türkiyə hərbçilərinin qarşısında, birbaşa hərbi paraddan Ermənistana Qarabağ şərtini elan etdi. Bəyan etdi ki, Azərbaycanın torpaqlarından erməni silahlı birləşmələrinin çıxarılması və torpaqlarla Azərbaycanın suverenliyinin bərpası Türkiyənin Ermənistanla münasibətlərində əsas şərtdir. Bu şərt yerinə yetirilmədən münasibətlərin qurulması mümkün deyil. Azərbaycan prezidentinin öz çıxışında Bakının azad olunması tarixi hadisəsinə çox böyük qiymət verdi. Prezidentin verdiyi bu qiymət bir daha göstərdi ki, Azərbaycan dövləti üçün 15 sentyabr Bakının azad olunması müstəqilliyimizin əldə olunması qədər böyük hadisədir”.

**Politoloq vurğuladı ki, Azərbaycan prezidenti Ermənistan hakimiyyətinə də paraddan xəbərdarlıq etmiş oldu:** “Ermənistan rəhbərliyi bu mesajlardan və paraddan nəticə çıxarmalıdır. Ümumiləşdirərək onu söyləyə bilərik ki, son parad indiyə qədər keçirilən paradlardan bir sıra mühüm nüanslarına görə seçildi və dünyaya, bir sıra dövlətlərə lazımi mesajları çatdırmış oldu. Necə ki, 15 sentyabr 1918-ci il tarixi Azərbaycanın tarixinə möhtəşəm tarix kimi düşüb, 15 sentyabr 2018-ci il paradı da Türkiyə-Azərbaycan birliyinin simvolu olaraq tarixə düşəcək”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 195 (7084) 18 sentyabr 2018

# Gözlənilən 2020-ci il böhranında ABŞ-ın rolu və itirəcəkləri...

## Natiq Cəfərli: "Dünyada hər hansı iqtisadi böhran baş verərsə, bundan ən çox ziyan çəkən ölkə elə Amerika olur, çünki..."

**Dünyanı yeni maliyyə böhranının gözlədiyi ilə bağlı iddialar son günlər dünya mətbuatının əsas müzakirə mövzularından birinə çevrilib. İddialara görə, növbəti maliyyə böhranı 2020-ci ildə baş verəcək. Bu iddia ilə "JP Morqan" maliyyə holdinqinin analitikləri çıxış ediblər.**

Bununla bərabər ABŞ-ın aksiyaları 20%, dünyadakı enerji resursları isə 35% dəyər itirəcək.

Ekspertlər baş verəcək yeni böhranın 2008-ci illə müqayisədə çox zəif olacağını bəyan ediblər. Onlar yeni böhranın nə qədər davam edəcəyini açıqlamayıblar.

Bəs görəsən, dünyada iqtisadi böhranın yaranmasında əsas rol oynayan ABŞ hökuməti bunda nə dərəcədə maraqlıdır? Böhran baş verərsə, ən çoz ziyyət çəkən ölkələr hansılar olacaq?

**Mövzu ilə bağlı sualları cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ABŞ hökumətinin atdığı addımlar dünya ticarətinin zəifləməsinə yönəlik problemlər yaradacaq:** "Dünya ticarət müharibəsi, eləcə də olan gömrük rüsumu və verginin artırılması ticarəti zəiflədir. Ticarət zəiflədikdə iqtisadi artım tempinin aşağı düşməsi ehtimalı da çoxalır. Bu baxımdan əgər ABŞ heç bir güzəştə getməsə, danışıqlar heç bir nəticə verməsə, ticarət müharibəsi davam edərsə, Çinlə, Avropa Birliyi ilə, Cənubi Kanada və dünyanın digər aparıcı ticarət mərkəzləri ilə bu qarşıdurmalar davam etsə,



təbii ki, dünya ticarətinin zəifləməsi yeni böhran dalğasının yaranmasına səbəb ola bilər".

**Lakin iqtisadçı hesab etmir ki, ABŞ hökuməti nəticəsini düşünmədən sona qədər bu addımları atmaqda davam edəcək:** "Çünki dünyada hər hansı iqtisadi böhran baş verərsə, bundan ən çox ziyan çəkən ölkə elə Amerika olur. Dünya iqtisadiyyatının 30 faizdən çoxunu Amerika iqtisadiyyatı təşkil edir. Bu baxımdan dünyada baş verən iqtisadi zəifləmələr ilk növbədə elə bu dövlətə ziyan vurur. Hesab edirəm ki, bunun arxasında duran siyasi amillər daha çoxdur. Tramp administrasiyası vergi artımları və ticarət müharibələri ilə Avropa Birliyini İrana qarşı, Rusiyaya qarşı ABŞ-la birgə addım atmağa sövq etməyə çalışır. Bunun nəticəsi olaraq, həmin addımları davamlı şəkildə atır. Lakin sonunda onlar bir anlaşmaya varacaqlar, bu anlaşma olmasa ən böyük ziyan Amerikaya dəyəcək. Ona görə də mən ABŞ-ın bu siyasətinin özü ilə brabər ciddi bir böhran gətirəcəyinə inanmıram. Amma ən azından dünya iqtisadiyyatı üçün müəyyən təhdidlər var. Əgər yaxın zamanlarda bu tendensiya səngiməsə, danışıqlar heç bir nəticə verməsə, ola bilər ki, 2019-cu ilin əvvəlindən başlayaraq, dünyada iqtisadi artım tempi sürətlə aşağı düşsün. Bu da beynəlxalq iqtisadiyyatın oyunçularına mənfi təsir göstərəcək".

**Dolların sürətlə bahalaşmasının dünya iqtisadiyyatında inflyasiyaya səbəb olacağına gəlincə, iqtisadçı ekspert bildirdi ki, növbəti faiz artımından sonra müəyyən yumşaldıcı addımların atılması vacibdir:** "Amerika iqtisadiyyatı üçün ən böyük problemlərdən biri də dolların sürətlə bahalaşmasıdır. Dollar son 6 ayda dünya valyutalarına qarşı 88 punkdan 96 punkta qədər bahalaşıb. Bu ilin sonunda Federal Rezerv Sistemi faiz artımına gedəcək və dekabrda daha bir faiz artımının olacağı da anons edilib. Bu iki artım dolların daha da möhkəmlənməsinə səbəb ola bilər ki, bu da inkişaf etməkdə olan ölkələrin valyutalarına mənfi təsir göstərəcək, həmin ölkələrin iqtisadiyyatında dalğalanmalara səbəb olacaq. O dalğalanmalar da dünya iqtisadiyyatına təsir göstərmək iqtidarındadır. Düşünürəm ki, FED-in növbəti faiz artımından sonra müəyyən yumşalmalarla bağlı addımlar olacaq. Bu da dolların həddindən artıq bahalaşmasının qarşısını alacaq. Lakin dollar bahalaşaraq dünya valyutalarına qarşı 100 punktu keçsə, bu, inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərəcək".

**N.Cəfərli onu da vurğuladı ki, dollarla rəqabətdə avronun dünya ticarətində öz mövqeyini itirməməsi üçün Avropa Mərkəzi Bankı da faiz artımına gedə bilər:** "Avropa Mərkəzi Bankından gözləntilər var idi ki, bu ilin sentyabr ayından faiz artımına gedəcək. Ancaq bu addımını ertələdi. İndi ABŞ-ın atacağı addımları gözləyirlər. Əgər ABŞ növbəti dəfə faiz ehtimalına getsə (bu ehtimal 100 faizdən artıqdır), o zaman oktyabrın sonu, noyabrın əvvəlində Avropa Mərkəzi Bankı da növbəti iclasında 15 ildən sonra ilk dəfə olaraq faiz artımına gedəcək. Bu da dünyanın aparıcı valyutaları arasında balans yaranmasına səbəb olacaq. Çünki avro dəyərdən düşdükcə dünya iqtisadiyyatında dolların gücü daha da artır. Avropa Mərkəzi Bankının əsas məqsədi odur ki, dünya ticarətində avronu müəyyən qədər möhkəmləndirərək dolların mövqeyini zəiflətsin. Bunun üçün bank müvafiq addımlar atmalıdır".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# "Xruşşovka"ların taleyi sual altında qalıb: söküntünü yubadan səbəblər

## Ekspert: "Pilot layihələrin icrası mənzil bazarına öz təsirini göstərir və bir sıra layihələrdə satışlar çox ləng gedir"

**Hazırda Bakının demək olar ki, xeyli ərazisində söküntü-tikinti, abadlıq işləri aparılır. İstismar müddətini başa vurmuş binalar sökülür, onların yerində isə hündür, gözoxşayan müasir tikililər ucaldılır.**

Mütəxəssislər bildirirlər ki, artıq tikinti sektorunda 2015-ci ildə manatın devalvasiyası və neftin dünya bazarında qiymətinin kəskin ucuzlaşması səbəbindən yaşanan durğunluq aradan qalxıb. Lakin bu vəziyyət heç də uzun sürməyə bilər...

Hələ devalvasiyadan öncəki plana görə, Bakıda və Bakıtrafı qəsəbələrdə 5 mərtəbəli binalar sökülməli idi. Çünki "xruşşovka", "stalinka" kimi adlanan bu binalar istismar müddətini başa vurmuş hesab edilirdi. 2011-ci ildə mütəxəssislər bildirirdilər ki, bu binaların hamısı sökülməlidir, çünki hər an uça bilər.



2016-cı ildə məsələ ilə bağlı Nazirlər Kabinetində də qərarı oldu. Belə ki, Nazirlər Kabinetinin "Bakı şəhərinin Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbayel, Piralahı, Xəzər rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" 25 fevral 2016-cı il tarixli qərarına əsasən adları qeyd olunan rayonların ərazisində abadlıq-quruculuq işlərinin davam etdirilməsi nəzərdə tutulub. Həmçinin qəzalı vəziyyətdə olan binaların sökülərək, yerində müasir tələblərə uyğun yenilərinin tikilməsi və qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə rayon icra hakimiyyətlərinə yaxın 5 il müddətində bir sıra işlərin həyata keçirilməsi tapşırıldı.

Pilot layihələrə əsasən Suraxanı rayonunda 63, Nəsimi rayonunda 226, Xətai rayonunda 99, Nərimanov rayonunda 219, Nizami rayonunda 131, Yasamal rayonunda 18, Səbayel rayonunda 41, Pirallahı rayonunda 297 ev sökülməli idi.

Hazırda bu qərara müvafiq olaraq Bakının müxtəlif rayonlarında pilot layihələr həyata keçirilir və 5 mərtəbəli deyil, əsasən 2-3 mərtəbəli binalar sökülərək, yerində çoxmərtəbəli tikililər ucaldılır. Məsələn, Nizami rayonu, Şirin Mirzəyev küçəsini göstərə bilərik. Bu küçədə artıq 2 ildir ki, 2 mərtəbəli binalar hissə-hissə sökülür. Binada yaşayan sakinlərə müvəqqəti kirayə qalmaları üçün vəsait verilir və bina hazır olduqdan sonra isə tikintini aparan şirkət sökülən ikimərtəbəlilərin sakinlərinə sahəsi onların əvvəlki mənzillərinin sahəsindən 10 faiz çox olmaqla, yeni binadan ev verir. Qalan mənzillər isə satışa çıxarılır. Şərtlər əlverişli olduğu üçün sakinlər şirkətlə razılaşıb, mənzillərini tərk edirlər.

Eləcə də digər rayonların ərazisində əsasın 2-3 mərtəbəli, istismar müddəti başa çatmış binalar sökülür. Şərtlər bütün rayonların ərazisində yuxarıda qeyd etdiyimiz kimidir. Ona görə də pilot layihələrin icrası zamanı "Sovetski"də olduğu kimi sakinlərin ciddi narazılıqları müşahidə olunmur.

Lakin "xruşşovka"ların söküntüsü ləngiyir. Hələ də sökülməsi nəzərdə tutulan 1-ci mikrorayon ərazisində olan 5 mərtəbəli binalar, Nizami rayonu ərazisindəki "xruşşovka"lar sökülməmiş qalıb.

**2016-cı ildə bildirilirdi ki, 1-ci mikrorayonda 34 bina sökülərək və orada 1-2 bloklu 20-dən çox yaşayış binası tikiləcək. 1-ci mikrorayonda sökülərək evlərin ərazisi 29 hektar, həmin mənzillərdən köçürülən ailələrin sayı isə 1729 kimi qeyd olunmuşdu. Lakin bu layihədə yubanma müşahidə edilir. Ərazidə yaşayan sakinlər hesab edirlər ki, oradakı binalar heç də qəzalı vəziyyətdə deyil. Sakinlərdən biri "Yeni Müsavat"a aşağıdakıları bildirib:**

"Televizoru asmaq üçün mənzilimin divarından dəlik açmaq istəyirdim. Bunun üçün xeyli əziyyət çəkdim. Axırı güclə dəlik açıb, televizoru divardan asa bildik. Deməyim odur ki, binanın betonu heç də yararsız vəziyyətdə deyil. Yeni binaların çoxunda divarlar kərpic olur. O binalarla müqayisədə "xruşşovka"ların əksəriyyəti xeyli dərəcədə dayanıqlıdır".

Məlumat üçün onu da qeyd edək ki, 2018-ci ildə dövlət büdcəsindən tikinti işlərinə 250 milyon vəsaitin ayrılması nəzərdə tutulub. Bu, 2017-ci illə müqayisədə təxminən 66 faiz, yaxud da 100 milyon artıqdır.

İnsanları da ən çox düşündürən bu məsələdir ki, Bakıda bütün 5 mərtəbəli binalar sökülələcəkmi?

**"Yeni Müsavat"a danışan iqtisadçı Rəşad Həsənov bildirib ki, pilot layihələrə vəsait ayrılmasının dayandırıldığı iddia olunur:** "Əvvəla deyim ki, Bakıda binaların sökülməsi, sadəcə olaraq, bir proqramdır. Yəni burada konkret müddət üçün öhdəlik yoxdur. Ona görə də "xruşşovka"ların sökülməsi büdcənin imkanları və eyni zamanda bazarın konyukturasına uyğun olaraq həyata keçirilir. Yəni birmənalı olaraq "xruşşovka"ların sökülməsindən söhbət getmir. Məndə olan məlumata görə, hazırda pilot layihələrin icrası ilə bağlı müəyyən qədər gecikmələr gedir. Eyni zamanda hətta bu prosesin dayandırılması haqqında qərarın olduğunu da deyirlər. Rəsmi şəkildə bu qərarla tanış deyiləm. Lakin biznes çevrələrindən məlum olan budur ki, bu istiqamət üzrə vəsait ayrılmaları dayandırılıb. Ona görə də indiki halda böyük ehtimalla gecikmələr olacaq. Bu uzunmüddətli dövrdə nəzərdə tutulmuş plan olaraq "xruşşovka"ların sökülməsi həyata keçirilə bilər. Hazırda bazarda tələb də aşağıdır. Pilot layihələrin icrası mənzil bazarına öz təsirini göstərir və bir sıra layihələrdə satışlar çox ləng gedir. Tikinti sektorunda mövcud olan inhisarçılıq da bu istiqamətdə öz təsirini göstərir və layihələrin müəyyən qədər gecikdirilməsi yolu ilə bazarda təklifin azaldılması baş verə bilər. Beləliklə də müəyyən qədər qiymətlər tənzimlənər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Düşməni darmadağın ssenarisi - Azərbaycanın müharibə hüququ gündəmdə

## Bakının anti-işğal planı - paytaxtdakı möhtəşəm hərbi paraddan sonra böyük təlimlərə start verildi; ildən-ilə artan hərbi qüdrətimiz savaş haqqının reallaşacağı günü yaxınlaşdırır...

**Gələn həftə BMT Baş Məclisinin növbəti sessiyası öz işinə başlayacaq. Sessiyanın gündəliyində Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ və digər əraziləri ilə bağlı məsələ də var. Ötənilki sessiyada bu məsələ bəzi səbəblərdən müzakirəyə çıxarılmasa da, bu dəfə işğal mövzusunun diqqət mərkəzinə gətiriləcəyi ehtimalı böyükdür. Bunu ən azından, münaqişə zonasında müharibə riskinin heç vaxt olmadığı qədər yüksək olması reallığı diktə edir.**




Belə vəziyyət gözlənildiyinin əksinə olaraq, Ermənistanın yeni rəhbərliyinin də Qarabağla bağlı destruktiv mövqeyi ilə birbaşa bağlıdır. Hər halda, fakt budur ki, erməni baş nazir Nikol Paşinyan problemin sülh yolu ilə nizamlanması məsələsində əvvəlki rejimlərdən və sələflərindən də maksimalist və absurd mövqe tutur, hətta öz ölkəsinin hərbi potensialı ilə düz gəlməyən davakar ritorika sərgiləyir. Bu isə sülhə ən kövrək ümidləri belə dağıdır, ərazisinin 20%-i işğal altında olan Azərbaycana müharibədən başqa çıxış yolu qoymur.

***

Yeri gəlmişkən, BMT Nizamnaməsinin 51-ci maddəsinə görə, ərazisi təcavüzə uğrayan bir dövlətin hərbi müdafiə hüququ var. Yəni Azərbaycan həmin maddəyə uyğun olaraq, atəşkəs rejiminə son qoyub öz ərazi bütövlüyünü hərbi yolla da təmin edə bilər. Bundan əlavə, BMT Nizamnaməsinin 25-ci maddəsində deyilir ki, qurumun Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarların icrası məcburidir. Dağlıq Qarabağla bağlı 4 məlum qətnamə də eyni sıraya aiddir.

Göründüyü kimi, BMT Nizamnaməsinin hər iki maddəsi Azərbaycana münasibətdə reallaşmamış qalır. Lakin 25-ci maddənin tələbinin həyata keçməsi böyük dövlətlərdən - əsasən də Rusiya və ABŞ-dan asılı durumdadırsa, 51-ci maddə - müharibə hüququ bilavasitə Azərbaycana aiddir və onu bizim əlimizdən kimsə ala bilməz. Ölkəmizin ildən-ilə artan hərbi qüdrəti bu hüququn reallaşacağı anı günbəgün yaxınlaşdırır.

Söz düşmüşkən, Ermənistan rəhbərliyinin son təxribatçı ritorikası fonunda dünən Azərbaycan Silahlı Qüvvələrinin növbəti genişmiqyaslı hərbi təlimi başlayıb. Sentyabrın 17-dən 22-dək ordumuzun müxtəlif qoşun növlərinin iştirakı ilə keçiriləcək əməliyyat-taktiki təlimlərə 20 mindən artıq şəxsi heyət, 200-dən çox tank və digər zirehli texnika, 120-dən çox müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 10-dək qırıcı və bombardmançı, 20-dək müxtəlif təyinatlı ordu aviasiyası cəlb olunub.

Həm təlimlər, həm də Bakının Qafqaz İslam Ordusu tərəfindən daşnak-bolşevik ünsürlərindən azad olunmasının 100 illiyi ilə bağlı ötən şənbə paytaxtımızda keçirilən hərbi parad şəksiz ki, düşmənə növbəti xəbərdarlıq ismarışıdır. Son 3 ay ərzində Bakında iki möhtəşəm hərbi paradın düzənlənməsi, paytaxtdakı ikinci paradı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın azərbaycanlı həmkarı İlham Əliyevlə birgə seyr eləməsi işğalçı tərəfə güc nümayişi ilə yanaşı, iki qardaş ölkənin hərbi ittifaqının sarsılmazlığının nümayişi idi. Parad zamanı etdiyi çıxışında Ərdoğan bir daha Qarabağ məsələsində Türkiyənin prinsipial mövqeyini bəyan elədi, Azərbaycan torpaqları işğaldan azad edilməyincə sərhədlərin açılmayacağını, bunu gözləyənlərin boşuna gözlədiklərini qəti şəkildə söylədi.

**Onu da xüsusi qeyd edək ki, budəfəki hərbi təlimləri əvvəlkilərdən fərqləndirən mühüm bir özəllik var. Bunu yayılan rəsmi məlumatdan görmək olar:** "Hərbi təlimlər zamanı eşelonlaşdırılmış düşmən müdafiəsinin tanklar vasitəsilə müxtəlif istiqamətlərdə yarılması, Qarabağ ərazisindəki Ermənistan hərbi qruplaşmalarının, eləcə də onun ön xətt qüvvələrinin darmadağın edilməsi, düşmən ərazisinin dərinliyində yerləşən hərbi və strateji obyektlərin raket-artilleriya və aviasiya zərbələri ilə məhv edilərək ərazilərimizin azad edilməsi üzrə tapşırıqlar yerinə yetiriləcək".

Təlimlərdə həmçinin son illər ərzində Azərbaycan ordusunun silahlanmasına qəbul edilmiş ən yeni hərbi texnika və silahlara şəxsi heyətin yiyələnmə vərdişləri yoxlanılacaq. Başqa sözlə, bu, əslində düşməni darmadağın etməyə yönəlik, konkret anti-işğal ssenarisidir. Deməli, ona və onun havadarına aydın bir mesajdır.

***

Söhbət əlbəttə ki, ən əvvəl Rusiyadan gedir - o Rusiya ki, hazırda onun rəhbərliyi ilə Paşinyan iqtidarı arasında gərginlik yaşanır. Ancaq hələ ki bu gərginlik Qarabağ məsələsində Bakı üçün əlavə "kart-blanş"a səbəb olmayıb. Moskva hələ də konfliktə yanaşmada ənənəvi "qamçı və kökə" siyasətini davam etdirir.

**"Rusiyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair mövqeyi dəyişməz olaraq qalır". Bunu ötən həftəsonu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi təmsilçisi Mariya Zaxarova brifinqdə bəyan edib.**

"Biz müxtəlif ölkələrdə Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə bağlı verilən bəyanat və açıqlamaları təhlil edirik. Rusiyanın mövqeyi dəyişməzdir. Bölgənin yekun statusu siyasi-diplomatik yollarla təyin olunmalıdır. ATƏT-in Minsk Qrupunun həmsədri kimi Rusiya razılıq əldə etmələri üçün tərəflərə özünün vasitəçilik dəstəyini göstərəcək", - deyə XİN rəsmisi bildirib. Zaxarova onu da deyib ki, tərəflər də irəliləyişə nail olmaq üçün müvafiq ab-hava yaratmalıdırlar.

Lakin Moskvanın Qarabağ məsələsinin dinc həllində maraqlı olduğunun səmimiliyinə, daimi sülhə kömək etmək istəyinə inanmaq çətindir. Bunu Kremlin layihəsi olan Avrasiya İqtisadi Birliyinin bəzi sənədlərində, daha dəqiqi, qurumun iqtisadi komissiyasının rəsmi statistik məcmuələrində Dağlıq Qarabağın Ermənistan ərazisi kimi göstərilməsi bir daha təsdiqləyir.

Bu yaxınlarda Rusiya prezidentinin Xocalı hərbi canisi, Ermənistanın sabiq prezidenti və Qarabağ məsələsində radikal mövqe tutan Robert Köçəryana şəxsən telefon açaraq onun ad gününü təbrik eləməsi də şübhə yox ki, Azərbaycana qarşı, yumşaq desək, xoşməramlı jest sayıla bilməz. Bir daha aydın olur ki, Moskva Dağlıq Qarabağ probleminə, Azərbaycanla Ermənistan arasında münaqişəyə sırf regionda möhkəmlənmək, Azərbaycanla Ermənistanı öz nüfuz dairəsində saxlamaq vasitəsi kimi baxır. Hər necə olmasa, dünya bilir ki, Rusiya Qarabağda sülh istəsə, buna satellit Ermənistana təsir eləməklə çox qısa müddətdə nail ola bilər.



## Azərbaycan hərbi güc reytinqində daha 5 pillə irəliləyib

**Azərbaycan hərbi gücünə görə dünya reytinqində 2017-ci ilə müqayisədə 5 pillə irəliləyərək 53-cü mövqedə qərarlaşıb. Bu göstərici "Globalfirepower" portalının 2018-ci il üçün hazırladığı siyahıda qeyd olunub.**

Azərbaycan bu göstəriciyə görə qonşuları Gürcüstan (82) və Ermənistanı (84) geridə qoyur. Gürcüstan yerini olduğu kimi saxlasa da, münaqişə vəziyyətində olduğumuz Ermənistan 9 pillə irəliləyib (Report). Türkiyə ötən illə müqayisədə 1 pillə geriləyərək 9-cu pilləyə düşüb. İran isə 8 pillə irəliləyərək 13-cü yerə yüksəlib. Reytinqdə dünyanın hərbi gücünə görə ən qüdrətli dövləti yenə də ABŞ-dır. Onun ardınca Rusiya, Çin və Hindistan qərarlaşıb.

Dövlətlərin hərbi gücü müəyyən edilərkən 50 müxtəlif amil nəzərə alınır. Burada silahlarla yanaşı, coğrafiya, təbii ehtiyatlar, əhalinin sayı və s. amillər də diqqətdən keçirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 195 (7084) 18 sentyabr 2018



# "Şərəf lövhəsi" üçün ödəniş...

**Samir SARI**

**Yox, demək olmaz ki, bizdəki pula hərisliyin dünyada analoqu yoxdur. Elə deyil. Dünyada pul-paranı sevməyən millət olsa-olsa Amerika hindularıdır, onlar da, bildiyiniz kimi, artıq tükənib gedirlər.**

Yerdə qalan bütün ölkələrdə insanların çoxu pula hərisdir, tamahkardır, daha çox qazanmaq, daha varlı olmaq istəyir. Çünki pul, bildiyimiz kimi, mübadilə və yığım vasitəsidir. Biz onu yığaraq aparıb saqqız və şarla, "Gelandevagen" və villa ilə mübadilə edirik.

Tədarük edilən saqqız və villa arasındakı disbalans isə pulun yığılması dərəcəsindən, həcmindən asılıdır. Kim az yığır, saqqız alır, kim çox yığır - villa. Bu qədər bəsit.

Ona görə də bütün ölkələrdə hamı vur-həşir pul yığır. Kim nə qədər bacarırsa, o qədər. Azərbaycan da o xanədəndir.

Bu üzdən heç kəs deməsin ki, pulgirlikdə dünyada analoqumuz yoxdur.

Ancaq məsələn, yaxşı oxuyan uşağın şəklinin şərəf lövhəsinə vurulması üçün valideyndən 20 manat pul tələb etmək presedenti bəlkə də heç Nigeriyada və ya qardaş Pakistanda da yoxdur.

Bizim minusumuz bax, budur. Pul tələb edilməsi absurd olan və ya absurd görünən şeylər üçün insanlardan pul-para tələb etmək.

O gün bir dost danışır ki, ailəsi ilə birlikdə "Oazis"də şam yeməyi yeyib, yoldaşının ad günüymüş. Öz telefonlarıyla 5-6 albomluq şəkil çəkdiriblər, axırda fikirləşiblər ki, bir dənə də restoranın fotoqrafına şəkil çəkdirsinlər. Çəkdiriblər. Yarım saatdan fotoqraf şəkli gətirib, deyib, 15 manat verəcəksiniz. "15 manat niyə?" - ailə başçısı sual verib və belə bir cavab alıb: "Şüşə çərçivəyə salmışam". Daha bir sual: "Niyə? Bunu səndən xahiş edən vardı?" Cavab: "Biz təklif edirik, istəmirsinizsə, çıxararıq".

Eloğlu üzə düşüb pul xərcləyənlərdən olmadığına görə şəkli çərçivədən çıxartdırıb, amma deyir ki, qonaq-qara yanında olan başqaları üzə düşür, 2-3 manatlıq bir şəkil üçün 15 manat verirdilər.

İndi bunun adı nədir? Bunun adı mədəni qarətdir. İnsanları üzə salıb ciblərini soymaqdır.

Dəqiq bilmirəm, dünyanı çox gəzənlər, məsələn, Bəxtiyar Hacıyev şəhadət verə bilər: hansı ölkədə toyda məcməyidə yanan üzərrik gəzdirir, tüstüsünü qonaqların üstünə üfləyib pul yığırlar? Bu, artıq ölkəmizdə populyarlaşmış xidmət növüdür.

Toyda oynaya-oynaya təzəbəyə aş gətirənləri demirəm hələ. O vergidə, gömrükdə işləmək kimi bir şeydir, hər axşam gəliri var.

Rus satirikləri İlf və Petrovun 83 il öncə yazdıqları "Birmərtəbəli Amerika" adlı sənədli romanda, daha dəqiqi, yol qeydlərində amerikalıların pulgirliyindən geniş bəhs edilir, deyilir ki, amerikalılar hər şey barədə zarafat edə bilərlər, puldan başqa. Təbii ki, bu əsər Stalinin qılıncının kəsərli vaxtı yazılıb və yazıçılar bu əsərdə Amerikanı tərifləyə bilməzdilər, onu ifşa etməliydilər. Ancaq o əsərdə amerikalıların yolda qalan sürücülərə münasibətindən də bəhs olunur və qeyd edilir ki, hər şeydən pul çıxaran amerikalıların dara düşmüş (qəzaya uğramış, benzini qurtarmış, maşını xarab olmuş) sürücüləri yolda qoyub getmək adəti yoxdur, mütləq hər kəs maşınını saxlayır və təmənnasız kömək edir. İlf və Petrov qeyd edir ki, dərəyə yuvarlanmış avtomobili yedəyinə alıb magistral yola çıxaran xilaskar sürücüyə pul təklif etmək təhlükəlidir, adamı söyə bilər.

İndi gəlin, baxın, bizdə necədir. Yolda gözlənilmədən yanacağı qurtaran sürücüyə iki litr benzini 3 qat bahasına satan adamlar var. Xarab maşını yedəyə alıb təmirçiyə apardığı üçün evakuator haqqı istəyənlər, köhnə təkəri təzə təkər qiymətinə satmağı düşünənlər, "sidenyamın çexolu batacaq" deyə yaralını öz maşınında xəstəxanaya aparmaqdan imtina edənlər var.

Bu ölkədə hər şeyə görə pul tələb edənlərin üzündəndir ki, insanlarımız da hər şeyə görə pul verməyə hazırdırlar.

Adamlar var, bir-iki ilə abituriyent olacaq övladını hazırlıq kursuna göndərir və təbii ki, pul verir. Eyni zamanda həmin valideyn həmin övladını çox yüklənməsin deyə məktəbə göndərmir və buna görə də pul verir. Halbuki uşaq öyrənməli olduğu dərsi doğma məktəbində öyrənsə, öyrədən olsa, valideyn iki dəfə xərcə düşməz.

Ancaq gerçəkdən də "şərəf lövhəsi"nə şəkil yerləşdirmək üçün pul tələb edirlərsə, daha söhbət hansı şərəfdən gedə bilər?

**P.S.** *Son anda rayonların birindən xəbər gəlib ki, İH başçısı pul alıb icra nümayəndəsi təyin edirmiş. Böhtana baxın, siz Allah. Ta o qədər də yox da...*

# Ekspert imtahanların yeni formatda keçirilməsində əsas hədəfdən danışdı

## **Kamran Əsədov:** "Bundan sonra təkcə biliklər deyil, bacarıqlar da qiymətləndiriləcək..."

**Azərbaycanda ali məktəblərə qəbul qaydaları dəyişir. Bununla bağlı buraxılış və qəbul imtahanlarının yeni modelinin detalları açıqlanıb. Bu barədə təhsil naziri Ceyhun Bayramov məlumat verib.**

olar. 2019-cu ildən etibarən ölkədə qəbul imtahanları tamamilə yeni formatda keçiriləcək. Bu da gözlənilən idi. 2008-2009-cu il tədris ilindən etibarən Azərbaycan orta ümumtəhsil məktəbləri yeni təhsil standartı, yeni sayında da dəyişiklik var. Belə ki, əvvəllər 125 test tapşırığına abituriyentlər cavab verirdilərsə, indi bu, 90 olacaq, yəni hər ixtisas qrupu daxilindən üç fənn və hər fənn də 30 test tapşırığı olacaq. Test tapşırıqlarının forbu eyni zamanda bacarıqlarınız da qiymətləndiriləcək. Bu günlər qəbul imtahanlarında 650-700 bal toplayanlar heç də savadlı kadrlar deyillər. Onlar özlərini ifadə etmək bacarığına malik deyillər. Situasiyadan çıxmaq kimi baca-



**Nazirin sözlərinə görə, "Təhsildə keyfiyyət ili"ndə əldə olunan müsbət dinamikanın qorunub-saxlanılması və mahiyyətcə inkişafyönümlü tədbirlərin 2018-2019-cu dərs ilində də davam etdirilməsi məqsədəuyğun hesab olunub:** "Hazırda Dövlət İmtahan Mərkəzi ilə sıx, əlaqəli şəkildə gələn ilki qəbul imtahanlarının yeni formatı istiqamətində əməkdaşlıq edilir. Qısa olaraq, yeni modelin mahiyyəti bundan ibarətdir ki, abituriyentin balı buraxılış imtahanı və qəbul imtahanında topladığı balların cəmi olaraq hesablanacaq. Belə ki, I mərhələdə (buraxılış imtahanında) abituriyentlər üç fəndən (ana dili, riyaziyyat, xarici dil) maksimum 300 bal, II mərhələdə (qəbul imtahanında) isə üç fəndən (ixtisas qruplarına uyğun) maksimum 400 bal olmaqla, cəmi 700 bal toplaya bilərlər".

**C.Bayramov bildirib ki, yeni modelə əsasən, ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən məzunlar daha az sayda fəndən imtahan verirlər və verdikləri hər bir imtahanın onların həyatına təsiri olur:** "Əvvəlki illərdə məzunlar eyni fəndən iki dəfə imtahan verməli olsalar da, bu imtahanlardan yalnız qəbul imtahanı məzunun gələcək həyatına təsir edirdi. Öncəki illərdə olduğu kimi, imtahanlar Dövlət İmtahan Mərkəzi tərəfindən keçiriləcək".

Ekspertlər qəbul qaydalarında ediləcək bu dəyişikliklərin Azərbaycanda təhsilin inkişafına töhfələr verəcəyini qeyd edirlər.

**Təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a bildirdi ki, bu il ənənəvi formada sonuncu qəbul imtahanları keçirilib:** "Ölkəmizdə 1992-ci ildən etibarən keçirilən qəbul imtahanlarının bu il başa çatdığını deməк təhsil strategiyası və kurikulumla tədris prosesini qurmağa başlayıb. İlk dəfə 2008-ci ildə birinci sinfə gedən şagirdlər 2019-cu ildə məktəbi bitirəcəklər. Onların əldə etdiyi biliklər, onlara tətbiq edilmiş metodologiya, qiymətləndirmə meyarları əvvəlkilərdən fərqli idi. Onların da bilik və bacarıqlarını ölçmək üçün yeni qiymətləndirmə alətləri, mexanizmləri tətbiq edilməlidir. Məhz gələn il onların bilikləri kurikulum standartlarının tələblərinə uyğun olaraq yoxlanılacaq. Qeyd edim ki, 2019-cu ildə qəbul imtahanları iki mərhələdən ibarət olacaq. Birinci mərhələ həm də buraxılış imtahanıdır. Əvvəlki illərin məzunları beşinci qrupdan imtahan verəcəklər. Birinci, yəni buraxılış imtahanı yaxud beşinci qrup adlandırdığımız mərhələdə iştirak edənlər minimum 0-300 bal toplamalıdırlar. Bu balı toplamaq üçün onlar Azərbaycan dili, riyaziyyat və xarici dildən imtahan verəcəklər. Rus bölmələri də rus dilindən imtahan verəcəklər. II mərhələdə onlar qəbul imtahanı verəcəklər. Əvvəlki illərdə qəbul imtahanında 700 bal idisə, indi 400 bal olacaq. Digər tərəfdən, əvvəllər beş fənn var idisə, 2019-cu ildən etibarən fənlərin sayı azalıb üç olacaq. Üç fəndən maksimum 400 bal toplanacaq. Təqdim edilmiş test tapşırıqlarının matında da dəyişiklik edilir. Abituriyentlərə təqdim olunacaq 30 test tapşırığının 22-si qapalı test tapşırığı olacaq. Yeni cavablar A, B, C, D, E variantları ilə iştirakçılara təqdim olunacaq. Beş test tapşırığı açıq tipli olacaq, yəni variantları özü seçib müəyyənləşdirəcək. 3 test tapşırığı isə situasiya tipli olacaq. Burada abituriyentlər cavabları yazılı şəkildə bildirəcəklər. İnsan faktoru bu üç test tapşırığında olacaq. Təbii ki, insan faktorunun qiymətləndirmə texnologiyasının tətbiqi zamanı neqativ hal deməzdim, amma ziddiyyətli məqamlar olacaq. İki ildir 9-cu siniflər üçün buraxılış imtahanında açıq, situasiya tipli test tapşırıqlarının yoxlanılmasında insan faktoru var idi. Ən ciddi problem də buradadır. Bir neçə yüz test tapşırığının yoxlanılması zamanı səhvə yol vermişdilər. Yeni imtahan qaydaları təhsilə hansı töhfələr verməlidir? İmtahanın keçirilməsində həm hədəf, həm də məqsəd var. Məqsəd odur ki, inkişaf artsın".

**Təhsil eksperti onu da qeyd etdi ki, indiyədək Azərbaycanda yaddaş məktəbi olub:** "Kimin yaddaşı güclü idisə, kim yaxşı əzbərləyirdisə, o, qəbul imtahanlarında yüksək bal toplayırdı. Bundan sonra yaddaş məktəbindən təfəkkür məktəbinə keçiləcək. Yəni təkcə bilikləriniz deyil, rıqları belə yoxdur. İndiyə qədər onların yalnız bilikləri yoxlanılırdı. 2019-cu il qəbul imtahanları şagirdlərimizdə yeni bacarıqlar, vərdişlər formalaşdıracaq. Biz kurikuluma keçmişik, amma sənəd üzərində bunu etmişik. Reallıqda bunun orta məktəblərdə ciddi rol oynamadığı göz önündədir. Bunu demək üçün əlimizdə olan əsas odur ki, Dövlət İmtahan Mərkəzi buraxılış imtahanlarını keçirdi və məlum oldu ki, 35 min şagird "2" qiyməti alıb. Demək, orta məktəblərdə bu, keyfiyyətli keçirilmir. Deməzdim ki, bu, orta məktəblərdə qiymətləndirmədə neqativ hallara gətirib çıxaracaq. Əksinə, şagirdlərin buraxılış qiymətlərinə maraqları artacaq. İndiyə kimi ali məktəblərə hazırlaşanlar buraxılış imtahanlarını ciddiyə almırdılar. "3 alaq keçək, onsuz da bizə qəbul imtahanı lazımdır" prinsipi ilə məsələyə yanaşırdılar. Amma indi buraxılış imtahanı 300 balla qiymətləndirildiyinə, ali məktəblərə qəbul üçün balın 40%-i orada toplanacağına görə bu məsələyə ciddi yanaşacaqlar. Burada pis vəziyyət 4-cü qruplar üçün olacaq. Digər qruplarda beş fənn olacaq, yəni üç fənn ixtisas qrupunda, üç fənn də buraxılış imtahanında olacaq. Onların arasında təkrarlananları var. Məsələn, riyaziyyat hər ikisində olduğu üçün fənlərin sayı azalır. Üçüncü qrupda Azərbaycan dili var, həmçinin buraxılış imtahanında da həmin fənn var. 4-cü qrupda isə bunlar yoxdur. Çünki onlar bu qrup üzrə fizika, kimya və biologiyadan imtahan verəcəklər, buraxılış imtahanında isə Azərbaycan dili, riyaziyyat və xarici dildən imtahan verəcəklər. Onlarda fənlərin sayı, əksinə, artacaq. İnanıram ki, 26 il ərzində ölkədə qəbul sistemində formalaşmış şəffaf, ədalət prinsipləri bundan sonrakı yeni qəbul qaydaları ilə davam edəcək".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 195 (7084) 18 sentyabr 2018

# Avtomobillərin geri çağırılması-şirkətlər bu addımı nədən atır?

**Almaniyanın BMW şirkəti kondisiyalaşdırma sistemində ehtimal olunan nasazlıq səbəbindən Çindəki 139 min avtomobilini geri çağırır. “Yeni Müsavat” “Reuters”ə istinadən xəbər verir ki, geri çağırma 2005-2011-ci illərdə Çində istehsal olunan və ya idxal edilən bəzi “3-series” modellərinə aid olacaq. Şirkət sistemi yoxlayacaq və zərurət yarandıqda nasaz detalları dəyişəcək. Qeyd edək ki, almanlar özləri hələ ki rəsmi şəkildə bu məlumatı şərh etməyiblər. Lakin bu məlumatın yayılması göstərir ki, yaxın vaxtlarda şirkətdən rəsmi açıqlama olacaq. Hər halda, dünya avtomobil nəhəngi Çin kimi böyük bazarı itirmək, yaxud dünyada öz nüfuzuna xələl gətirmək istəməz.**

## Dünya avtomobil sənayesi tarixində ən böyük geri çağırmanı ABŞ şirkəti olan “FordMotor” edib...



**Avtomobil niyə geri çağırılır?**

Dünya avtomobil sənayesi tarixi göstərir ki, özünə hörmət edən, adının qeydinə qalan istehsalçı öz məhsulunun xarab olduğunu hər zaman etiraf etmir. Buna baxmayaraq, hər il bir neçə dəfə müxtəlif istehsalçılar tərəfindən açıqlanan belə etiraflarda adətən hansı modeldə hansı hissənin problemli olduğunu açıq göstərilir, həmin modeli alan hər kəsdən çatışmazlığı aradan qaldırmaq üçün pulsuz təmir bürolarına gəlmələri xahiş olunur.

Geri çağırmanın səbəbləri müxtəlif ola bilər. Lakin onların hamısı birmənalı olaraq istehsal prosesində yol verilmiş nöqsanlardan qaynaqlanır. Bu nöqsanlar - defektlər eyni xarakterli çoxsaylı müraciətlərdən sonra istehsalçının özü və ya müxtəlif qurumların ekspertləri tərəfindən aşkarlana bilər. Ekspertləri məhkəmə də təyin edə bilər, dövlət qurumu da. Məsələn, ABŞ-da bu məsələ ilə Yol Hərəkətinin Təhlükəsizliyi üzrə Amerika Milli Administrasiyası adlı dövlət qurumu məşğul olur. Avtomobildəki zavod defektlərinin olmasını müəyyənləşdirən daha bir qurum məhkəmə orqanlarıdır.

Avtomobillərin “geri çağırılması” termin olaraq ilk dəfə 1978-ci ildə ABŞ-da işlədilib. Həmin vaxt ABŞ-da istehsalçılar üzərinə istehlakçıların həyatına ən xırda təhlükə belə yaradacaq defekt aşkarlanan zaman öz avtomobillərini geri çağırmaq və bu barədə dövlət orqanlarını məlumatlandırmaq öhdəliyi qoyan qanun qəbul olunub. Bir neçə il sonra analoji qanunu Yaponiya, ardınca isə Almaniya qəbul etdi. 80-ci illərin əvvəlində artıq geri çağırılma bütün dünyada adi praktika kimi qəbul olunmağa başladı.

Keçmiş SSRİ-də heç zaman avtomobillərin geri çağırılması halı qeydə alınmayıb. Lakin bu, heç də sovet maşınlarının tam defektsiz istehsal olunduğu anlamına gəlmir. Təsadüfi deyil ki, sovet dövründə avtomobili alan kimi sürən olmurdu - hamı birinci usta yanına aparıb əl gəzdirib, sonra sürməyə başlayırdı.

Avtomobil istehsalçıları maşın sahiblərini geri çağırılma barədə özləri məlumatlandırırlar. İki cür məlumatlandırma var: adi və safety-recall.

Adi geri çağırılma qeydə alınmış defektin avtomobil sahibinin həyat və sağlamlığına təhlükə yaratmadıqda tətbiq olunur - alıcıya poçtla bildiriş göndərilir.

Safety-recall geri çağırılma maşın sahiblərinə bir-bir zəng vurularaq defekt və atılacaq addımlar barədə məlumatlandırılmasıdır. Belə məlumatlandırılma həyat və sağlamlıq üçün ciddi təhlükələr yaranan zaman həyata keçirilir. Bu zaman şirkət mətbuatda defekt haqda rəsmi açıqlama ilə çıxış edir, avtomobil sahiblərini təcili olaraq servis mərkəzlərinə müraciət etməyə çağırır. Belə çağırılma hətta rəsmi dilerlərdən alınmayan avtomobillərə də aid edilir.

**Ən böyük geriçağırmalar**

Dünya avtomobil sənayesi tarixində ən böyük geri çağırmanı ABŞ şirkəti olan “FordMotor” edib. 2001-ci ildə şirkət 1983-1995-ci illərdə istehsal olunmuş 22 milyon avtomobili geri çağırıb. Geri çağırılma siyahısına qeyd olunan dövrdə şirkət tərəfindən istehsal olunan bütün minik avtomobilləri düşmüşdü. Geri çağırılmaya səbəb bir vəkilin məhkəmədə spesifik situasiyalarda elektron yanma modulunun sına biləcəyini və avtomobilin işə düşməyəcəyini isbatlaması oldu. Halbuki praktikada bir dəfə də olsun belə hal qeydə alınmadı.

2000-ci ildə “Mitsubishi Motors” daxili bazar üçün istehsal olunmuş 2 milyondan çox avtomobili geri çağırıb. Məhkəmə müəyyənləşdirdi ki, şirkət əyləc sistemindəki defekti bilərəkdən bir neçə il gizlədib. Bu hadisə şirkətin səhmlərinin 20 faiz ucuzlaşmasına, onun prezidentinin isə həbs olunmasına səbəb oldu.

Ən təhlükəsiz avtomobillərin istehsalçısı kimi tanınan Yaponiya şirkətləri də xətadan yan ötə bilməyiblər. Məsələn, 2009-cu ildə “Toyota” şirkəti 4,4 milyon avtomobili geri çağırmalı olub - əyləcin basılmasına mane olan uğursuz “xalça”ya görə. Həmin defektə görə avtomobillər qəfildən sürəti artırmağa başlayır, heç bir əyləcə tabe olmurdu. Bu defekt 31 nəfərin ölümünə gətirib çıxardı. Nəticədə “Toyota” 2004-2010-cu illər ərzində istehsal olunan 10 modeli geri çağırmalı oldu. 2010-cu ildə şirkət eyni defekt üzündən daha 2,2 milyon avtomobili geri çağırdı. Ötən bir neçə il ərzində geri çağırılan avtomobillərin sayı 9 milyonu ötdü. İnsident şirkəti xeyli müddət problemlərlə üzləşdirdi. Məsələn, 2014-cü ildə “Toyota” təhqiqatçılara yalan məlumat verməkdə suçlu bilinərək 1,2 milyard dollar cərimə ödəməli oldu.

2012-ci ildə isə şirkət əsasən “Corolla” və Camry-dən ibarət 10 model üzrə 2,5 milyon avtomobili geri çağırmalı oldu. Bu dəfə problem daha ciddi idi -şüşəqaldırıcı ilə mərkəzi qıfıl arasındakı idarəetmə blokunda qısaqapanma yaranır və yanğına səbəb olurdu.

2014-cü ildə ABŞ-ın avtomobil nəhəngi olan “General Motors” çox böyük skandalla üzləşdi. İşəsalma düyməsi ilə bağlı yaranan problemə görə şirkət 2,6 milyon avtomobili geri çağırmalı oldu. Bu problem üzündən baş verən qəzalarda 13 nəfərin ölməsi rəsmən təsdiqləndi.

Bəzən defektlər üzündən şirkətlər yalnız geri çağırılan avtomobillərin təmir xərcini deyil, böyük məbləğdə cərimələr də ödəməli olurlar. Məsələn, 2015-ci ildə “Volkswagen” şirkəti zərərli tullantıların miqdarını azaltmaq üçün tətbiq etdiyi dizel sistemindəki defektə görə ABŞ hökuməti tərəfindən 18 milyard dollar cərimələndi. Almanlar daha 7 milyard dollara yaxın vəsaiti problemin aradan qaldırılmasına sərf etməli oldular. “Dizelgeyt” adı alan bur proses zamanı dünya üzrə 11 milyon ədəd avtomobil geri çağırıldı.

Bu il də avtomobillərini geri çağıran şirkətlər olub. Belə ki, ilin əvvəlindən “General Motors” öz tarixi boyu ən genişmiqyaslı geri çağırmalardan birinə getməli olub. Rul idarəetməsi ilə bağlı problemə görə 1,2 milyon maşını təcili təmirə cəlb edib. “The Wall Street Journal”ın yazdığına görə, indiyədək bu defektə görə 30 qəzanın baş verdiyi rəsmən təsdiqlənib. Rəsmi məlumata görə, ilin əvvəlindən bəri belə rul idarəetmə sisteminin quraşdırıldığı “Chevrolet Silverado i GMC Sierra”, həmçinin “Chevrolet Tahoe və Cadillac Escalade” modelləri geri çağırılır. Şirkət defekt aşkarlanan bütün avtomobillərin təmirini üzərinə götürdüyünü elan edib.

Bu ilin yanvarında “Toyota” “Takata” təhlükəsizlik yastığında aşkarlanan problemlə bağlı 600 min avtomobili geri çağıraraq yoxlamadan keçirib. Həmin təhlükəsizlik yastıqları 16 nəfərin ölümünə səbəb olub.

Yeri gəlmişkən, Yaponiyanın “Takata” konserni dünyada ən iri təhlükəsizlik yastığı istehsal edən şirkətlərdən biri idi. 2013-cü ildən etibarən onun məhsullarında ciddi problemlər aşkarlanmağa başladı. İlkin mərhələdə konsern problemi inkar etsə də, onlarla ölüm halı qeydı alınandan sonra məhkəmə qərarı ilə təhlükəsizlik yastıqlarının əslində real ölüm mənbəyi olduğu təsdiqləndi. Məlum oldu ki, yastıqların hazırlandığı maddə bir müddət sonra sözün həqiqi mənasında partlayıcıya çevrilir. Yaponiyanın “Honda” şirkəti bu problem üzündən ABŞ bazarında satdığı milyonlarla maşını geri çağırmalı oldu. Problemli yastıqlardan istifadə “BMW”, “Chrysler”, “Ford”, “Mazda”, “Nissan” və “Toyota” hər biri yüz minlərlə avtomobilini təmirə qaytardı. “Takata”ya qarşı qaldırılan təzminat davalarının məbləği milyardlarla dolları keçdi. Nəhayət, 2017-ci ildə şirkət özünün müflis olduğunu elan etdi.

“Takata” təhlükəsizlik yastıqları ilə bağlı prosesdə çox maraqlı bir məqam diqqəti cəlb edir. Belə ki, yastığın alovlanması üzündən həyatını itirən 12 nəfərin avtomobil istehsalçısı tərəfindən problemlə bağlı azı 10 dəfə elektron qaydada xəbərdar olunduğu aydınlaşıb. Həmin şəxslərin heç biri vaxtında xəbərdarlıqdan nəticə çıxararaq yastıqları dəyişmək üçün servisə müraciət etməyib. Bu isə o deməkdir ki, avtomobil sahibləri defektlər barədə xəbərdarlıqlara ciddi yanaşmalıdılar - hansı üsulla gəlir-gəlsin...

**❑ Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 195 (7084) 18 sentyabr 2018

# "Artıq yüklənmə şagirdlərin sağlamlığına, qavrama qabiliyyətinə mənfi təsir edir"

## Psixoloq Təranə Mehdiyeva: "Valideynlərə hər zaman bir tövsiyəmiz olur - uşaqlarınıza kompüter, yarış maşını kimi yanaşmayın"

**Yeni dərs ilinin başlanması özü ilə birgə xeyli problemlər də gətirib. Bu problemlərin bir çoxu isə elə valideynlərin ucbatından yaranıb. Dərs ilinin başlanmasına günlər qala valideynlər uşaqları hədsiz dərəcədə yükləyirlər: individual məşğələlər, rəqs, idman, rəsm... Günlər bölünür, məşğələ üçün saatlar müəyyənləşdirilir. Axırda isə məlum olur ki, uşağın nəfəs almaq, oyun oynamaq, bir sözlə, özünə vaxt ayırmaq üçün bir dəqiqəsi belə qalmayıb. Müasir dövr uşaqların inkişafı üçün olduqca tələbkardır, doğru. Hər bir valideyn övladının inkişafı üçün əlindən gələni etməyə çalışsa da, bu zaman onu yükləmədən xilas edə bilmir.**

### Valideynlər bəhsə girib, uşaqlar zülm çəkir

**Psixoloq Təranə Mehdiyeva** hesab edir ki, müasir valideynlər dəb xatirinə, bəhs-bəhsə girib, individual məşğələlərlə, kurslarla uşaqlarını yorurlar: "Uşaq beyninin informasiyanı qəbul etmə potensialı var. Ondan artıq yüklənmə sağlamlığa, qavrama qabiliyyətinə mənfi təsir edir. Gündə ən azı 20 test edən, üstəgəl məktəb yükü, yol gərginliyi ilə yüklənən məktəblidən uğurlu nəticə gözləmək olmaz. Əksinə, uşaq çox tez bir zamanda məktəbdən də, təhsildən də, dəftər-kitabdan bezə bilər".

**Müsahibimizin fikrincə, məktəb illərindəki uşaqlar keçid dövrünü yaşadıqları üçün bu məqama xüsusi önəm vermək lazımdır. Belə ki, həmin dönəmdə olanlar onsuz da qarışıq duyğular, emosiyalar içində olurlar. Bu məqamda valideynlər onlarla daha çox vaxt keçirməli, məktəbdəki, öz dost çevrəsindəki problemlərlə maraqlanmalıdır:** "Amma bu halda uşaq bütün gününü məşğələlərdə, belə demək mümkünsə, "yad adamların" yanında, yolda keçirir. Onlar da uşağa ancaq nəyisə öyrədir, bəzən danlayır, uğurlu nəticə tələb edirlər. Bu halda uşaqlarda ciddi psixoloji yüklənmə baş verir. Onlar özlərini az qala "yarış atı" kimi hiss edirlər: daim uğurlu nəticə əldə etmək, valideynlərinin tərifini eşitmək yarışı. Məktəbli uşaqlar bəzən çox kiçik bir problemi faciə kimi qarşılayırlar. Amma bu məqamda valideyni onun yaşadığı o problemdən daha çox dərsi maraqlandırır. Müasir valideynlərdə elə təsəvvür var ki, əgər uşaq yaxşı dərs oxumursa, uğur qazana bilmirsə, onun gələcəyi məhv olacaq. Halbuki ciddi mənəvi problemi olan, məktəbdə həmyaşıdları ilə ünsiyyət problemi yaşayan uşaqlar gələcəkdə ən pis vərdişlərin daşıyıcısı olurlar. Odur ki, bizim valideynlərə hər zaman bir tövsiyəmiz olur - uşaqlarınıza kompüter, yarış maşını kimi yanaşmayın. Onları yükləməyin, çox tələbkar olmayın. Nəzarəti əldən qoymayın, amma "qamçı"nı əldən qoyun".

### Dərsliklərin yükü azaldılmalı idi, amma...

Təhsil Nazirliyi ekspertləri isə dəfələrlə mediaya açıqlamalarında bildiriblər ki, məktəblilərin dərs yükünü azaltmaq üçün dərsliklərlə bağlı islahatlara əl atılacaq. Məsələn, iki il əvvəl nazirliyin 6-cı siniflər üçün nəzərdə tutulan riyaziyyat dərsliyinin səhifələrini 20-25 vərəq azaldacağı ilə bağlı vəd verilsə də, nəticədə dərs proqramı da, kitablar da ağırlaşdı.

Məlumat üçün xatırladaq ki, V-VII siniflərdə həftəlik tədris yükü 56 saata qədərdir. Yalnız tədris fəaliyyətinə və onun statistik komponentlərinin öyrənilməsinə məktəblinin sərbəst vaxtının təxminən 68 faizi sərf edilir, yəni əlindən alınır. Bu qədər informasiya yükünün altına girmək isə hər bir yeniyetmə üçün uğurlu nəticə vəd etmir.

Daha bir detal isə bu ağır dərs yükü ilə yanaşı, məktəblilərin çiyninə düşən ağır çanta yüküdür. Mütəxəssislərə görə, çantanın çəkisi uşağın çəkisinin 14-15%-ni keçməməlidir: bu hesabla 8 yaşınadək olan uşaqlar 2 kilo (içindəkilərlə), 8-12 yaşınadək uşaqlar ən çox 4, 12-15 yaş uşaqlar isə 5 kilo ağırlığında çanta götürməlidirlər. İçində heç nə olmayan çantanın çəkisi 700 qramı keçməməlidir. Kürək çantaları hər iki çiyindən asılmalıdır. Çantanı yalnız bir çiyindən asmaq beldə sağa-sola əyilmələrə, yəni skolioz kimi xəstəliklərə səbəb ola bilər.

### Kompüterdən nə qədər istifadə etsinlər?

Və müasir azərbaycanlı şagirdin vazkeçilməzi, amma ən qatı düşməni olan kompüter... Normativlərə görə, birinci siniflər kompüterlə 10 dəqiqə, II-V siniflər 15, VI-VII siniflər 20, VIII-IX siniflər 25, X-XI siniflər birinci dəfə 30, müəyyən fasilədən sonra 20 dəqiqə məşğul ola bilərlər. I kursda oxuyanlar bir saat, yuxarı kurs tələbələri 2 saat 15-20 dəqiqəlik fasilələrlə kompüterdən istifadə edə bilərlər. Halbuki indi müasir şagirdlərin kompüter qarşısında keçirdiyi vaxtla normativ arasında ikiqat fərq var.

Dünyanın ən inkişaf etmiş ölkələrində ibtidai sinif uşaqlarına ev tapşırıqları verilmir. Kitablar çox vaxt sinifdə qalır. Kurikulumun tələblərinə görə keçilən mövzu elə dərs prosesində öyrədilir.



Dünyanın əksər ölkələrində birinci növbədə gənclərin sosial müdafiəsi üçün 12 və ya 13 illik orta təhsil sistemi həyata keçirilir. Məsələn, Böyük Britaniyada təhsil müddəti 10-13 il, Fransa, İspaniya, Polşa, Yaponiya, Litva, Latviya, Estoniya və Moldovada 12 il, İtaliya, İsveçrə, Almaniyada 13 ildir. Ölkələrin yalnız 25 faizində orta təhsil 10-11 illikdir ki, Azərbaycan da bu qrupa daxildir. Tədris illəri artırılsa, mütənasib olaraq hər ilə düşən yük, hər günə düşən saatlar da azalar. Saat az olduqda, təbii ki, çantaya yığılan dərsliklər, iş dəftərləri, dərs vəsaitləri və ləvazimatlar da ixtisara düşər.

### Amma tətilimiz də çoxdur....

Amma məsələnin o biri tərəfi də var. Hansı ki, Azərbaycanda uşaqların yay tətili, bayram günləri də dünyadakı digər həmyaşıdlarından daha çoxdur. Dünyada heç bir ölkə tətil günlərinin sayı məsələsində bizimlə rəqabət edə bilməz. Amerikada tədris ili 180 gündür. Məktəblilərin yay tətili 9-11 həftə çəkir. Milad bayramında 1,5-2 həftə, Şükran Günü bayramında 2-3 gün, Pasxa bayramında isə 2-5 günlük kiçik tətillər olur.

Danimarka, Fransa və İngiltərədə yay tətili 6 həftə olur. Bu ölkələrin ara tətilləri də (rüblük) cəmi 5 gündür. İsveçdə tədris ili iyunun ortasından avqustun ortasınadək davam edir. Milad bayramı ilə bağlı 15 günlük tətil İsveç məktəblilərinin dərs ilini iki hissəyə bölür. Yaponiyada ildə iki böyük tətil - martın sonundan aprelin əvvəlinə və iyulun sonundan avqustun sonuna kimi nəzərdə tutulub. Yay tətili ilin ən uzun tətilidir. 24 dekabrdan 7 yanvara qədər ənənəvi qış tətilidir.

Kanadada yay tətili iyul-avqustu əhatə edir. Qış tətili isə cəmi 2 həftə olur. "Marta Break" adını daşıyan yaz tətili isə martın üçüncü bazar ertəsindən başlayıb bir həftə sürür. Almaniyada yay tətili 6 həftədən çox olmur. Pasxa bayramında 2, payızda 1 həftəlik tətil, habelə dekabrın sonundan yanvarın ilk ongünlüyünə qədər davam edən qış tətilindən başqa tətil yoxdur. Norveçdə dərs ili avqustun son həftəsindən başlayır və iyunun ortasına kimi davam edir. Qış tətili və Pasxa bayramı da 1 həftəlik tətillərlə müşayiət olunur.

Azərbaycanda isə il ərzində şagirdlərə 3 ay 15 gün yay, Yeni il və Novruz bayramlarında isə hərəsi 1 həftə olmaqla istirahət verilir. Yəni ildə 4 ay. Bundan başqa, İngiltərədə tədris ili 38 həftə davam edir. Yəni yayda 6, Milad və Pasxa bayramlarında isə 2-3 həftə tətil olur. Orada tətillərin müddəti keçilən dərslərin saatları ilə də mütənasibdir. ABŞ-da səhər saat 8:30-da başlayan dərs 16:00-da qurtarır. İngiltərədə saat 9:00-da başlayan dərs 15:30-da başa çatır.

Azərbaycan orta məktəbi rəqabətə uyğun deyil. Standartlara görə, orta təhsil ən azı 12 il nəzərdə tutulur. ABŞ, Kanada, Fransa, İspaniya, Yaponiya, Polşa, Moldova, Özbəkistan, Ukrayna, Belarus və Gürcüstanda orta təhsil 12 ildir. Almaniya, İsveçrə, İtaliya və Çexiyada 13, Hollandiyada 14 ildir. 12 illik təhsilə keçidin tətillərə təsiri ola bilərdi. Yəni o zaman bol tətillər tətbiq oluna bilər.

Xatırladaq ki, tətillərlə bağlı yeni "Təhsil haqqında" Qanunda heç nə yazılmayıb. İbtidai, ümumi orta və tam orta təhsildə tətillərin nə qədər nəzərdə tutulması qanunda göstərilməyib. Yəni tətillərin müddəti və sayı qanunla tənzimlənmir. Məsələn, İngiltərədə əsas məqsəd şagirdlərin sərbəst bilik qazanması və onun təcrübədə tətbiqidir. Uşaqlar ən çox kitabxana və laboratoriyalarda məşğul olur, tez-tez yoxlama esseləri və layihələr yazır. Azərbaycan məktəbləri isə sovet dövründə olduğu kimi mərkəzləşmiş qaydada idarə olunur. Tətil günləri və dərsin müddəti vahid mərkəzdən müəyyənləşdirilir.

Ekspertlər hesab edir ki, qəbul imtahanları, şagird biliklərini yoxlama proqramları Azərbaycan məktəblilərinin orta məktəb proqramını mənimsəyə bilmədiyini göstərir.

Bu, tətil günlərinin çoxluğu, dərslərin həddən artıq ağır olması ilə bağlı ola bilər. Tətillər o prinsiplə müəyyənləşməlidir ki, uşaqlar tədris olunan fənni mənimsəsinlər. Amma indiki tədqiqatlar göstərir ki, bu sahədə qüsurlar var. Yuxarı sinif şagirdləri kütləvi şəkildə dərsdən yayınır. Azərbaycan təhsilində xaotik bir durum yaranır. Dərslərin 15 sentyabra keçirilməsi ilə əlaqədar 15 gün müddətinin harasa sığışdırılması məsələsi vardı. Dərs ilinin 15 sentyabra keçirilməsi məktəblərimizə yenilik gətirmədi. 1 sentyabr nostaljisini unutmağa gətirib çıxardı. Rasional yanaşsaq, uşaqlar daha çox evlərdə təhsil alırsa, tətillərin sayının azaldılması daha məqsədəuyğundur.

Daha bir detal yay məktəbləri ilə bağlıdır. Belə ki, Qərbdə yay məktəbləri olduğu üçün uşaqlar il boyu mənimsədikləri bilikləri həmin məktəblərdə möhkəmləndirirlər. Ölkəmizdə elə təcrübənin olmaması da uzunmüddətli tətillər zamanı uşaqlarda ətalətin yaranmasına səbəb olur. Necə deyərlər, yay vaxtı məktəblilər yüklənir, yay tətilində isə onların biliyinin təkrarlanması və bu fənni unutmaması üçün heç bir tədbir görülmür.

❑ Sevinc TELMANQIZI,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 195 (7084) 18 sentyabr 2018

**Sentyabrın 20-də “Qarabağ” Avropa Liqasının qrup mərhələsində ilk oyununda “Sportinq”in qonağı olacaq. “Qarabağ”ın bu sezon Avroliqanın qrup mərhələsinə düşməsinə hələ də ağız büzənləri heç anlamıram. Azərbaycanın əsas klubunun Çempionlar Liqasına düşə bilməməsinin obyektiv və subyektiv səbəblərini sıralamağa da daha ehtiyac yoxdur. O ərəfədə ürəyimizi boşaltdıq, hərdən haqlı, hərdən haqsız tənqidlərlə...**




# “Qarabağ”a “güllə atdığımız” yetər, indi güllər vaxtıdır...

## Nəzərə alsaq ki, Lissabon təmsilçisi məhz ötən il Avroliqadakı məğlubiyyətdən sonra dağılmaq təhlükəsi ilə üzləşib, o səbəbdən “Sportinq” meydana çox iddialı çıxacaq...

“Qarabağ”a “güllə atmaq” indi çox asandır, klubda xeyli çatışmayan tərəflər var, heyət stabilləşməlidir. Üstəlik də tənqidə dözümlü Qurban Qurbanov amili də var. Rəhmətlik Elçibəyin məşhur kəlamı yada düşür: “Fağır bir prezident tapmısız, sağdan da vurursuz, soldan da...” İndi içi mən qarışıq Qurban qardaşımızı sağdan - “Qarabağ”a görə, soldan - milli komandanın Millətlər Liqasındakı oyununa görə tənqid edirik. İki gün əvvəl bir telekanalda tanımadığım bir mütəxəssis deyirdi ki, Azərbaycanda ancaq polya var, nə milli var, nə klub, nə futbol, nə futbolçu. Bu qədər də amansız olmayaq, məncə. “Qarabağ” qara qaşına görə indi Avroliqanın qrupunda deyil axı. “Qarabağ”, əlbəttə, ötən ilkindən daha güclü heyətə sahib olmalı idi, daha sanballı oyunu ilə seçilməli idi. Niyə gözlədiyimizin olmamasının səbəbləri də aydındır, amma “Qarabağ”ın Avroliqada olması çox vacib idi. Bu kluba çox lazım idi, azarkeşə də, azarkeş olmayana da, AFFA-ya da, Azərbaycana da...

“Qarabağ”ın “Arsenal” və “Sportinq” kimi güclü rəqiblərlə bir qrupa düşməsi, əlbəttə ki, gözümüzü qorxudur, narahatlığımızı artırır. Amma bu da bizim taleyimizdir. “Qarabağ” üçün daima narahatlıq...

***

“Sportinq”in tarixi 1906-cı ilin iyulundan başlayır. Bu illər ərzində 18 dəfə ölkə çempionu, 16 dəfə ölkə kubokunun, səkkiz dəfə Super Kubokun sahibi olub. Əlbəttə ki, klubda bu illər ərzində həm zirvəyə qalxma, həm eniş dövrləri olub. Klubda kimlər baş məşqçi olub? Bu siyahı uzundur, amma üç ad futbol azarkeşlərinə daha yaxşı tanışdı: Malkolm Ellison, Bobbi Robson və Karluş Keyruş.

1981-1982-ci illər mövsümündə “Sportinq” ingilis baş məşqçisi Malkolm Ellisonun rəhbərliyi altında həm ölkə çempionu, həm ölkə kubokunu qazansa da 80-ci illərin sonu xeyli geriləd. 1980-ci illərin sonu və 1990-cı illərin əvvəlləri “Sportinq”in ən çətin dövrü kimi yadda qalıb. 1992-ci ildə kluba hətta məşhur ingilis Bobbi Robson da dəvət edilib. Robson yalnız ilyarım “Sportinq”də duruş gətirə bilib və klubu krizisdən çıxara bilməyib. Bundan sonra isə (1994) Karluş Keyruş klubun məşqçi korpusuna rəhbərliyə gətirilib. İki ildə kluba o, baş məşqçilik edib. Keyruşun rəhbərliyi dövründə “Sportinq” çempion olmasa da, həm ölkə kubokuna, həm Superkuboka sahib ola bilib. Komandanın son illərdə ən böyük uğuru isə 2005-ci ildə Avropa Liqasının finalında oynamaq olub.




Ötən il isə “Sportinq” qalmaqallarla gündəmə gəldi. Avropa Liqasında klub 1\4 mərhələdə “Atletiko”ya məğlub olaraq yarımfinala çıxa bilmədi. İlk oyunda Lissabon təmsilçiləri səfərdə 0:2 hesabı ilə məğlub oldular. Doğma meydanda isə bu klub yalnız vurulan qollardan birinin əvəzini çıxa bildi. 28-ci dəqiqədə Freddi Monteronun vurduğu top növbəti mərhələyə çıxmaq üçün bəs etmədi. “Sportinq” ölkə çempionatında da “Porto”dan xeyli geridə qalırdı və artıq çempionluq şansı dəfn edilmişdi. Bu səbəbdən bütün ümidlərini bağladığı Avroliqada da uğursuzluq klubun prezidentinin səbrini daşırdı. Klubun oyunçularını təhqir etdiyi üçün bir neçə futbolçu heyəti tərk etdi. İş o yerə çatdı ki, azarkeşlər də uğursuzluğa görə klubun futbolçularını günahlandırmağa başladılar və hətta komanda üzvlərinə hücumlar da oldu.

Amma klub funksionerləri toplaşaraq vəziyyətə əl qoydular. Direktorlar Şurası böyük səs çoxluğu ilə 2013-cü ildən klub prezidenti olan Joze Rikkyardı istefaya göndərdi. Sentyabrın 8-də isə Frederiku Varandaş klubun yeni prezidenti seçilib.

Klub bu qalmaqallardan sonra sifətini qorumaq üçün bəzi transferlər həyata keçirib. Məsələn, bu ilin yayında Mali yığmasının forvardı Abdulaem Diabi 60 milyon avroya kluba transfer olunub. Onun son klubu Belçika “Brügge”si olub. Daha bir səs-küylü transfer yenə yayda gerçəkləşib. Belə ki, 31 yaşlı Nani yenidən kluba qayıdıb və ona kapitan sarğısı etibar edilib.

Naninin futbol karyerası 2000-ci ildə “Sportinq”də başlayıb. Əvvəl o, klubun gənclər heyətində, 2005-2006-cı illərdə isə əsas heyətdə yer alıb. “Mançestr Yunayted”, “Valensiya” və “Latsio”da oynadıqdan sonra yenidən “Sportinq”ə qayıdıb.

Klub oyunlarını 50 min tutuma malik “Joze Alvalade” stadionunda keçirən “Sportinq” son mövsümdə 3-cü yeri tutaraq Avropa Liqasının qrup mərhələsində oynamaq hüququ qazanıb.

“Sportinq”də necə atmosfer olduğu haqda “Qarabağ”ın uğurlu transferlərindən olan yarımmüdafiəçi Simeon Slavçevin müsahibəsində tanış oldum. Slavçevin dediklərini siz də oxuyun: **“Həqiqətən çox xoşbəxtəm. Xüsusilə də ”Sportinq"dən ayrıldığım üçün. Bu, mənim üçün böyük bir yük idi. Orada daim psixoloji və idarəçiliklə bağlı problemlər olurdu".**

Hazırkı baş məşqçisi Joze Pezeiru də kluba yeni təyinat alıb. 58 yaşlı portuqaliyalı mütəxəssis 2004-2005-ci illərdə də klubda işləyib. Son iş yeri isə Birləşmiş Ərəb Əmirliklərinin “Şarja” klubu olub.

Baş məşqçi “Qarabağ”la keçiriləcək görüşü vacib hesab edir və klubu bu görüşə ciddi hazırlayır. Nəzərə alsaq ki, klub məhz ötən il Avroliqadakı məğlubiyyətdən sonra dağılmaq təhlükəsi ilə üzləşib, o səbəbdən “Sportinq” meydana çox iddialı çıxacaq. “Qarabağ” üçün bu oyunda ən yaxşı nəticə əlbəttə ki, bir xalla Bakıya dönmək olardı. Qələbə isə lap əla olardı. Arzulamaq ziyanlı iş deyil.

**“Qarabağ”a “güllə atdığımız” yetər, indi güllər vaxtıdır.**

**Uğurlar, “Qarabağ”!**

❑ **Nazim SABİROĞLU,**
**“Yeni Müsavat”**



# YENİ MÜSAVAT

## Son səhifə

*N 195 (7084) 18 sentyabr 2018*


# Tısbağa yolda tıxac yaratdı



**45 kiloluq tısbağa Amerikanın Florida ştatındakı Sarasota şəhərində ciddi tıxaca səbəb olub. Sürücülər hadisə yerinə polisləri çağırıblar. Polis Ron Lokun sözlərinə görə, heyvanı yoldan çıxarmaq üçün bir neçə iri cüssəli şəxsin yardımından istifadə olunub. Bundan sonra tısbağanı yük maşınının kuzovuna qoyaraq aparıblar. Bu haqda informasiya isə facebook sosial şəbəkəsində yayılıb. Hüquq-mühafizə orqanları heyvanın sahibini sosial şəbəkə vasitəsilə tapmağa çalışıblar. Bildirişin yayımından bir neçə saat sonra heyvanın sahibi Rayan Adams səhifədə şərh yazıb. Kişi məlumat verib ki, heyvanın adı Buldozerdir. Onun sözlərinə görə, tısbağa bağçadakı torpağı eşərək oradan uzaqlaşmağa nail olub.**



# Timsah şirlərə hücum etdi, yaşlı şir mübarizədə qalib gəldi

**Botsvana gələn turistlər timsahın şirə hücumunun şahidi olublar. Bununla bağlı çəkilən videoya YouTube klanalında 400 min dəfə baxılıb. İnsident Linyanti çayında baş verib. İki şir çayın digər sahilinə tərəf üzən vaxt onlardan nisbətən cavan olanına timsah hücum edib. Digəri, yəni yaşlı olanı isə dostunu xilas etmək üçün timsahla mübarizə aparıb və onu xilas edib. İlk dəqiqələrdə cavan şirin xilas olub sahilə çıxması, yaşlısının isə gözə dəyməməsi diqqət çəkib. Belə təxmin edilib ki, yaşlı şir yoldaşını xilas etmək istədiyi zaman özü timsahın qurbanına çevrilib. Amma aradan uzun müddət keçəndən sonra yaşlı və xilaskar şir də sahildə görünməyə başlayıb. Videonun müəllifi aşağıdakıları yazıb: "Görünməmiş möcüzədir, amma onların ikisi də bu mübarizədən heç bir yara almadan qurtuldular".**

Aprel ayında isə britaniyalı turist Malavidə timsahın fil balasına hücum etməsi ilə bağlı olayı videoya çəkməyə müvəffəq olmuşdu.

# Bir dollarlıq lotereya bütün həyatını xilas etdi

**ABŞ-ın Konnektikut ştat sakini Anissa Dellaripa bir dollara alınan lotereya bileti sayəsində bütün həyatını xilas edib. Bu barədə UPİ xəbər portalı məlumat yayıb. Qız etiraf edib ki, lotereya biletini atası ona kolleci bitirməsi münasibətilə hədiyyə edib: "Atam mənə tez-tez zarafat üçün lotereya bileti satın alır. Budəfəki bilet bir dollar dəyərində idi və atam böyük ehtimalla ondan heç nə gözləmirdi. Mən o bileti götürdüm, otağa daxil oldum və onun nömrələrinin üstünü tutan qatı siləndən sonra gözlərimə inana bilmədim".**

22 yaşlı amerikalı qız əvvəlcə düşünüb ki, bu, valideynlərinin onu növbəti dəfə aldatmasıdır. Amma uduş həqiqi olub. Qız uduşu götürmək üçün gələndə ona iki variant təklif olunub: ya birdəfəlik 400 min dolları götürmək, ya da ömrünün sonuna qədər hər ay 2 min dollar almaq. Dellaripa ikinci variantı tərcih etdi: "Bu, mənim üçün olduqca böyük məbləğdir. Çünki mən hələ çox cavanam. Amma bu mükafat mənə təhsilimi davam etdirməyə imkan verəcək". Qız bunu izah etdi və bildirdi ki, atasına ömürlük hədiyyə üçün təşəkkür edir.





# Təcrübə aparmaq üçün hər kəsə 2215 avro verəcəklər

**Rejissor Rebekka Panian İsveçrənin Reynan kənd sakinlərinə hər ay 2215 avro verməklə bir təcrübə keçirməyə qərar verib. Planlaşdırılır ki, bir il ərzində 1300 nəfər sakini olan və Sürix ətrafı dağ kontonlarında yerləşən kənddə yaşayanlara bu məbləğ veriləcək. Eksperimentdə iştirak etmə icazəsini 848 nəfər kənd sakini verib. Öncədən elan edilib ki, baza gəlirindən daha az qazanan şəxslər bu yardımı ala biləcək. İsveçrəlilərin orta aylıq məvacibi 2.5 min frank təşkil edir. Araşdırmaçılar bu eksperiment sayəsində insanların davranışını müəyyən etmək istəyirlər. Yənis baza gəliri iş axtarmaq üçün stimul verir, ya yox. 2016-cı ildə isveçrəlilərin böyük qismi aylıq 2.5 min frank məbləğində sığortalanmış məvacib məsələsinə etiraz ediblər. Bu məsələyə razılıq verənlər ölkənin cəmi 18.2 faizini təşkil edib.**






**QOÇ** - Fəaliyyət göstərdiyiniz sahələrdə həmkarlarınızla mübahisələriniz mümkündür. Bunu nəzərə alıb çılğınlıq göstərməyin. Rahatlanmaq istəyirsinizsə, axşam mütləq qonaq gedin.



**BUĞA** - Ciddi işlərin həllini təxirə salın. Xüsusən də pulla bağlı sövdələşmələrdən imtina etməyiniz məsləhətdir. Əks təqdirdə, cəhdləriniz uğursuz olacaq. İstirahətinizə fikir verin.



**ƏKİZLƏR** - Həftənin ən uğurlu gününü yaşayacaqsınız. Maraqlı hadisələr, işgüzar sövdələşmələr, eləcə də qənaətbəxş təkliflər ürəyinizcə olacaq. Bir şərtlə ki, xırdaçılığa yol verməyəsiniz.



**XƏRÇƏNG** - Öz gücünüzə inanın. Kənar rəylərə yalnız qulaq asın. Əməli işlərdə isə öz düşüncələrinizi əsas tutun. Bu gün maraqlı və vacib şəxslərlə görüşəcəyiniz də istisna olunmur.



**ŞİR** - Olduqca riskli gündür. Planlarınızı əvvəlcədən təyin edin. Müştərək fəaliyyətdə ədalət prinsiplərinə riayət edin. İnadkarlıq etməkdənsə qarşı tərəfin obyektiv rəyini nəzərə alın.



**QIZ** - Ulduzlar xəbər verir ki, indiki məqamda sizə diqqət və qayğı lazımdır. Bunu hamı bilməsə də, bilənlər az deyil və inşallah, saat 14-dən sonra tələbat duyduğunuz qayğıkeşliyi görəcəksiniz.



**TƏRƏZİ** - Bürcünüzün "hakimiyyətə" yaxınlaşdığı bu ərəfədə vəziyyətiniz qənaətbəxş olacaq. Yeni təkliflər almaqla, perspektivlərinizdə əməli dəyişikliklər edə bilərsiniz. Səfərə çıxmayın.



**ƏQRƏB** - Daxili orqanlarınıza diqqəti artırın. Göy qübbəsi qarşınıza çıxan şanslardan faydalanmağı vacib sayır. Bu təqvimdə tanımadığınız ünvanlara getməyin. Uzaq səfərlər də məsləhət deyil.



**OXATAN** - Atdığınız hər bir addıma məxfilik donu geyindirin. Çünki bu təqvimdə bütün cəhdləriniz müəmmalı tərzdə təqdir edilməlidir. Yüksək dairələrdən sizə kömək etmək istəyənlər var.



**OĞLAQ** - Astroloji göstəricilər bu təqvimdən xeyli razı qalacağınızı bəyan edir. Bir tərəfdən maddi durumunuzun yüksəlişi, digər tərəfdənsə maraqlı adamlarla görüşləriniz sizi sevindirəcək.



**SUTÖKƏN** - Mənəvi rahatlığa qovuşmaq üçün gözəl imkanlarınız var. Ətrafınızda cərəyan edən hər bir hadisə sizə xüsusi zövq verəcək. Günün ikinci yarısında sağlıq durumunuzu, xüsusilə ürəyinizi qoruyun.



**BALIQLAR** - İş prinsipində bəzi xoşagəlməzliklər labüddür. Rəhbərlərinizlə mübahisə aparmayın. Öhdənizə düşən vəzifələrin həllini sürətləndirin. Axşam evə hava qaralmamışdan əvvəl gedin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Müəllim dərs xatirinə siçan yeyib



**Cənubi Koreyanın Çonıp şəhərində müəllim şagirdlərinin gözü qabağında siçan yeyib. Lenta.ru saytı The Korea Times-a istinadən xəbər verib ki, 44 yaşlı kişinin bu hərəkəti etməsinə səbəb bəzi uşaqların heyvanları incitməsi, onları təhqir etməsi olub. Adı açıqlanmayan müəllimin siçanı necə yeməsini 7 şagird müşahidə edib. Həmkarları bu insident barədə məlumat alandan sonra müəllim internatı tərk etmək məcburiyyətində qalıb. Dərsdə iştirak edən uşaqların valideynləri isə bununla bağlı polisə müraciət ediblər. Ona qarşı "uşaqlara qəddar davranma" maddəsi ilə cinayət işi qaldırılıb. Hadisədən sonra müəllim uşaqlardan, valideynlərdən və digər müəllimlərdən üzr istəyib.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.